

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qarabağın zəruri imkanlara malik turizm potensialı



9

# "Əlaqələrimiz hərbi sahədə də uğurla inkişaf edir"



2

SƏS
№ 201 (6884)
2 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

**Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanını qəbul edib**

# ABŞ səfirinin mövqeyində

## GÖRMƏMƏZLİK, YALAN, MANİPULYASİYA VƏ TƏXRİBATÇILIQ



5

## Protein: dərman, yoxsa qida əlavəsi?



6

## Aqrar istehsal həcmi potensiala adekvat deyil: Səbəblər və çıxış yolları



11

## Siqaretlə bilə-bilə ölümə...



10

## Klinikaların küvəz fırıldağı: qoyulmasa öləcək!



13

## İmtina



8

# “Əlaqələrimiz hərbi sahədə də uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanını qəbul edib*

**Prezident İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.**

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinə başlanıldığını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.



Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi. Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.

Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.

## Koreya Milli Assambleyasının sədri:
## ”Azərbaycan regiona sülh gətirmək üçün böyük səylə işləyir”



**Milli Məclisin sədri Sahibə Qafarova Koreya Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 1-də bu ölkənin Milli Assambleyasının sədri Jin-pyo Kim ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Jin-pyo Kim bu səfərin iki ölkə arasında münasibətlərin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.**

Koreya Respublikasının Azərbaycanın müstəqilliyinin ilk günlərindən sıx əlaqələr qurduğu ölkələrdən biri olduğu vurğulanıb, ikitərəfli münasibətlərin inkişafında siyasi təmasların - yüksək səviyyəli səfərlərin, görüşlərin müstəsna rolu qeyd edilib.

Bildirilib ki, ölkələrimiz arasında münasibətlərdə iqtisadi əməkdaşlıq mühüm yer tutur. Azərbaycan Cənubi Qafqaz regionunda Koreyanın əsas ticarət tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsi durmadan artır, lakin iqtisadi əməkdaşlığı daha da gücləndirmək və şaxələndirmək üçün böyük potensial mövcuddur.

Görüşdə Azərbaycanın qeyri-neft sektorunun daha da inkişafı ilə bağlı planları, ”Ağıllı şəhər” və ”Ağıllı kənd” konsepsiyaları, Azərbaycanın su təchizatı sistemlərinin inkişafı, ölkəmizin bərpaolunan enerji sahəsində həyata keçirdiyi proqramlar və bu sahələrdə Koreya şirkətlərinin iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, ölkələrimiz arasında müxtəlif formatlarda qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı imkanlar var. Ölkələrimiz ənənəvi format və təşkilatlar ilə yanaşı, yeni əməkdaşlıq formatlarında da birgə fəaliyyət göstərə bilər. Sahibə Qafarova mədəni oxşarlıqlara və dil yaxınlığına görə Koreya Respublikasının Türk Dövlətləri Təşkilatı ilə tərəfdaş ölkə kimi əməkdaşlığının mühüm nəticələrin əldə olunmasına gətirib çıxara biləcəyinə inamını ifadə edib.

Söhbət zamanı humanitar istiqamətlərdə əlaqələrin əhəmiyyəti vurğulanıb, təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Hazırda Koreyada 200-ə yaxın azərbaycanlı tələbənin təhsil aldığı, Azərbaycan və Koreya universitetləri arasında müxtəlif beynəlxalq tələbə mübadiləsi və ikili diplom proqramlarının mövcud olduğu diqqətə çatdırılıb.

Həmçinin nəqliyyat sahəsində əməkdaşlıq imkanları da nəzərdən keçirilib. Diqqətə çatdırılıb ki, Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit ölkə kimi mühüm rolu artmaqdadır. Zəngəzur dəhlizinin açılması ilə bu axın daha da genişlənəcək. Sahibə Qafarova Koreya şirkətlərinin bu imkanlardan istifadə edə biləcəklərini vurğulayıb. Görüşdə parlamentlər arasında əməkdaşlıq, son 2 ildə bu istiqamətdə intensivliyin artması müsbət hal kimi qiymətləndirilib və bu sahədə münasibətlərin daha da genişləndirilməsinə dair müzakirələr aparılıb.

S.Qafarova regionda mövcud olan vəziyyət, Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində öz torpaqlarını Ermənistanın işğalından azad etməsi, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işləri, cari il sentyabrın 19-20-də Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri barədə geniş məlumat verib

Milli Assambleyanın sədri Jin-pyo Kim beynəlxalq hüquqa əsaslanmağın vacibliyini vurğulayaraq deyib ki, Azərbaycan regiona sülh gətirmək üçün böyük səylə işləyir. O, bu səylərin nəticə verəcəyinə və Azərbaycanın sülhün əldə edilməsinə nail olacağına ümid etdiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə daha da inkişaf etdirilməsi yollarına dair müzakirələr aparılıb.

Sonra Azərbaycan parlamentinin nümayəndə heyəti Milli Assambleyanın inzibati binası ilə tanış olub.

### Gürcü siyasətçi: ”Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin Tbilisidə imzalanmasını istəyirik”

Gürcüstanın bəzi platformalara, o cümlədən ”3+3” formatına qatılmaması, heç də o demək deyil ki, biz sülhyaratma proseslərində iştirak etmək istəmirik. Əksinə Gürcüstan Cənubi Qafqazda gedən proseslərdə, müxtəlif məsələlərin həllində iştirakını dayandırmayıb və davam etdirir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstan parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Nikoloz Samxaradze söyləyib. Komitə sədri deyib: ”Biz Tbilisinin Azərbaycan və Ermənistan arasında böyük sülh müqaviləsinin imzalanacağı yer olmasını istəyirik”.



”Düşünürəm ki, Gürcüstanın bu məsələdə iştirakı və sülh müqaviləsinin Tbilisidə imzalanmasına digər tərəfdaşlarımız da etiraz etməyəcəklər”, - deyə Nikoloz Samxaradze vurğulayıb.

### Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib

Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib. AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Xatırladaq ki, Zəngilan şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il oktyabrın 29-da işğal olunub. Vətən müharibəsində şanlı Qələbə qazanan rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 20-də şəhəri işğalçılardan azad edib.



# Parisin uran planı

## Fransa və Qazaxıstan strateji faydalı qazıntılar üzrə əməkdaşlıq haqqında razılığa gəliblər

**Fransa prezidenti Emmanuel Makron və Qazaxıstan prezidenti Qasım-Jomart Tokayev uranın da daxil olduğu strateji faydalı qazıntılar üzrə əməkdaşlıq haqqında bəyannamə imzalayıblar. Fransa prezidentinin səfəri zamanı ümumilikdə altı saziş imzalanıb, Qazaxıstan prezidentinin mətbuat xidməti xəbər verir. Qazaxıstan Prezidenti qeyd edib ki, görüşdə ölkələr arasında ticarət-iqtisadi əlaqələrin inkişafına xüsusi diqqət yetirilib və "bugünkü çətin geosiyasi və geoiqtisadi vəziyyətdə bu, xüsusilə vacibdir" deyib. Görüşdə əldə olunan bütün razılaşmaların icrasını sürətləndirmək üçün Tokayev işçi qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib.**



Qasım-Jomart Tokayev Fransanın Qazaxıstanın mühüm tərəfdaşı olduğunu deyib və bu il iki ölkə arasında strateji tərəfdaşlıq sazişinin imzalanmasının 15-ci ildönümünün qeyd olunduğunu vurğulayıb: "Bu ilin 8 ayında ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi ötən illə müqayisədə 21% artaraq 2,7 milyard dollara çatıb". Tokayev bildirib ki, Fransa Qazaxıstanın ən böyük investorları sırasındadır. Son 15 ildə Fransadan Qazaxıstana 18,7 milyard dollara yaxın investisiya cəlb olunub. Fransa prezidentinin səfəri zamanı tərəflər həmçinin külək elektrik stansiyasının birgə tikintisi və dəmir yolu avadanlıqlarına texniki xidmət göstərilməsi barədə razılığa gəliblər. Həmçinin, dabaq xəstəliyinə qarşı vaksinlərin tədarükü, Fransa agentliyi qrupunun yaradılması, Qazaxıstanda fransız məktəblərinin açılması haqqında sazişlər imzalanıb.

Emmanuel Makronun uran tədarükünün artırılması ilə bağlı danışıqlar aparmaq üçün Qazaxıstan və Özbəkistana səfər etməsi Fransanın urana ehtiyacı ilə bağlıdır. Nigerdə enerji resursları istehsalının dayandırılması Parisi hərəkətə gətirib. Onu da qeyd edək ki, avropalılar Rusiyadan nüvə yanacağı istehsalı üçün uran xammalı tədarükündən müstəqilliyə doğru ilk real addımı atıblar. Fransız Orano şirkətinin direktorlar şurası ölkənin cənubundakı zənginləşdirmə zavodunu genişləndirmək üçün 1,7 milyard avro sərmayə qoymağı təsdiqləyib. Zavod istehsalı 30%-dən çox artıracaq. Qərb mətbuatının yazmağa tələsdiyi yeni sentrifuqalar Rusiyadan asılılığı azaldacaq. Bununla belə, azalma o qədər də təsiredici olmaya bilər.

İnvestisiya qərarı vermək üçün Oranoya təxminən bir il vaxt lazım olub: şirkət ilk dəfə 2022-ci ilin ortalarında Ukraynada Rusiya hərbi əməliyyatlarının başlamasından sonra əlavə sentrifuqaların yaradılmasının zəruriliyini elan edib. Orano daha sonra Rusiya tədarükündən imtina etmək istəyən avropalı və amerikalı müştərilərdən çoxlu müraciət aldıqlarını söyləyib. Əvvəllər Qərb müştəriləri, eləcə də Aİ və ABŞ-ın tənzimləyiciləri və səlahiyyətli orqanları Qərb nüvə stansiyalarının uzunmüddətli müqavilələr əsasında Rosatomdan cəlbedici qiymətlərlə xammal aldıqları qurulmuş bazardan kifayət qədər razı idilər.

Ən yaxşı halda 2028-2030-cu illərdə peyda ola biləcək yeni Orano sentrifuqaları çətin ki, Rosatom-u lider mövqeyindən kənarlaşdırsın. Bazarda cəmi dörd böyük oyunçu var: Rosatom-un gücü 27,7 milyon SWU, Urenco (Almaniya, Böyük Britaniya, Hollandiya) 13,7 milyon, Orano-da 7,5 milyon, Çin CNNC-də 6,3 milyon. İndiyə qədər Orano ilə yanaşı, genişlənmə planları yalnız Çində var. Ən böyük atom elektrik stansiyaları parkına malik olan ABŞ-da 4,9 milyon SWU gücünə və 14 milyon SWU-ya tələbatına malik tək Urenco zavodu var və bu günə qədər yerli müəssisələr yeni sentrifuqalar qurmağa tələsmirlər. Lakin ABŞ-da mütərəqqi aşağı güclü reaktorlar üçün HALEU eksperimental yüksək zənginləşdirmə zavodunun lisenziyaları ilə bağlı müzakirələr davam edir.

Beləliklə, Avropada atom müstəqilliyindən danışmaq tezdir, bəlkə də mümkün deyil. Rusiya arxayındır ki, gec-tez avropalılar ona minnətçi düşəcəklər. Hələlik Fransa Rusiyanın müttəfiqi olan Qazaxıstanla müqavilə imzalayıb. Qarşıdakı illərdə bu ticarətin nə qədər məhsuldar olacağına hər kəs şahidlik edəcək. Belə ki, marşrut xəttləri, yeni Qazaxıstandan alınacaq uranın hansı yolla daşınma məsələsi hələ də açıq qalır. Rusiya indidən yox deyir, bəs Azərbaycan?

***V.SALAH***

# Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir

## Biləsuvar rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Biləsuvar rayon təşkilatı noyabr ayının 1-də tədbir keçirib.**




Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ümummilli Liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara və Ulu Öndərin anadan olmasının 100-cü ildönümü münasibətilə təşkil olunmuş rəsm sərgisinə baxıblar. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.



Tədbiri giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı tarixi şəxsiyyət, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində misilsiz rolundan danışıb, Azərbaycan tarixinin bütöv bir dövrünün dahi şəxsiyyətin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlı olduğunu deyib. Onun sözlərinə görə, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov bildirib ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. O, bütün həyatını Azərbaycanın inkişafına həsr edib və onun zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. F.Qürbətov Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin tarixi uğurlara imza atdığını söyləyib.

YAP İdarə Heyətinin üzvü, akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru, kimya elmləri doktoru Əfsun Sucayev vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə liderlik missiyasını layiqincə yerinə yetirib. Onun uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqilliyimizin dönməzliyi təmin edilib və Azərbaycan böyük intibah yoluna qədəm qoyub.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov Ulu Öndər Heydər Əliyevin həyatının xalqa xidmətin ən mükəmməl örnəyi olduğunu deyib. O bildirib ki, Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

Biləsuvar rayon Ağsaqqallar Şurasının sədri Akif Kazımov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq məfkurəsinin, azərbaycançılıq ideyasının banisidir. Dahi rəhbərin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edir. Ümummilli Liderimizin ideya və prinsiplərinə sadiq qalan Prezident İlham Əliyevin Ulu Öndərin siyasətini uğurla davam etdirməsi nəticəsində həmvətənlərimizin birlik və həmrəyliyi daha da möhkəmlənib. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına fəxri fərman, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunub.



# "Köç prosesi sistematik xarakter alıb"

*EKSPERT DANIŞDI*

**"44 günlük Vətən müharibəsindən, torpaqlarımızın işğaldan azad edilməsindən sonra təbii ki, bir müddət minaların təmizlənməsi prosesi getdi. Yenidənqurma və bərpa işlərinə start verildikdən sonra isə vaxtilə bu ərazilərdən erməni işğalı nəticəsində köç etmiş sakinlərimizin geri dönüşünün şahidi olduq. Bu proses demək olar ki, artıq sistematik bir xarakter alıb". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Çingiz Qənizadə bildirib. Ekspert bildirib ki, 3 il müddətində həm ərazilərin minalardan təmizlənməsi, həm də bu ərazilərdə müəyyən quruculuq işlərinin aparılması, infrastruktur layihələrin tətbiqi və sakinlərin öz doğma yurdlarına köçürülməsinin təmin edilməsi həm Azərbaycan dövlətinin iqtisadi gücünü göstərir, həm də siyasi iradəsini nümayiş etdirir: "Hazırda soydaşlarımızın öz el-obalarına köçürülməsi Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələdir.**

**Hesab edirəm ki, bu proses artıq daha da sürətlənəcək. Çünki həm artıq minatəmizləmə işlərinin, həm də yenidənqurma işlərinin sürəti artıb. İstənilən halda köç prosesi Azərbaycan dövlətinin iqtisadi və siyasi gücünün göstəricisidir".**

***Səbinə Hüseynli***

# Ələt azad iqtisadi zonasının ərazisi 24 hektara yaxın genişləndirilir

## PREZİDENT İLHAM ƏLİYEV Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında SƏRƏNCAM imzalayıb

Prezident İlham Əliyev oktyabrın 31-də Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Ələt azad iqtisadi zonasının ərazisi genişləndirilməsi ilə bağlı imzaladığı Sərəncamda bildirilir: ””Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən və Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncamın əlavəsindəki yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 23,74 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna verilsin. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu və ”Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər”.

Bəli, Prezident İlham Əliyevin 2021-ci il iyulun 1-də təməli qoyulan Ələt azad iqtisadi zonasının ərazisinin genişləndirilməsi ilə bağlı Sərəncamı bir daha dövlət başçısının bütün sahələrdə verdiyi vədinin əməli ilə üst-üstə düşdüyünün göstəricisidir. Çünki dövlət başçımızın söylədiyi kimi .





### ”BU ZONANIN YARADILMASI İDEYASININ TƏMƏLİNDƏ BİZİM SİYASƏTİMİZ DAYANIR”

Prezident İlham Əliyev 2021-ci il iyulun 1-də təməli qoyulan Ələt azad iqtisadi zonasının yaradılması ideyası ilə bağlı Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir: ”Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda, burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək”.

Prezident İlham Əliyev Ələt azad iqtisadi zonasının yaradılması ilə bağlı atılan addımlardan danışaraq bildirib ki, ilk növbədə, biz təşkilati işləri görməli və elə bir şərait yaratmalı idik ki, investorları cəlb edə bilək: ”İlk növbədə, qanunvericilik sahəsində işlər görülməli idi və mən 2017-ci ildə Ələt azad iqtisadi zonasının yaradılmasının sürətləndirilməsinə dair müvafiq Sərəncam imzaladım, 2018-ci ildə qanun qəbul edildi. Bu, həm dövlət maraqlarımızı, həm investorların maraqlarını tam təmin edən çox mütərəqqi qanundur. Bu, çox önəmlidir. Çünki əgər qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olsaydı, əlbəttə ki, onları buraya cəlb etmək mümkün olmazdı. Xüsusilə nəzərə alsaq ki, son illərdə dünyada cərəyan edən iqtisadi və maliyyə böhranı investisiyaların həcmini də azaldıb. Əlbəttə ki, pandemiya da dünya iqtisadiyyatına mənfi təsir göstərib. Belə bir tarixi məqamda bu addımı atmaq, əlbəttə ki, həm böyük cəsarət tələb edir, həm də bizim inamımıza əsaslanır. Ona görə hesab edirəm ki, qanunvericilik sahəsində görülən işlər həm investorların, həm də Azərbaycan dövlətinin maraqlarını tam təmin edir. Ondan sonra 2018-ci ildə artıq praktiki işlərə başlanılmışdır. Bu 850 hektarlıq ərazi ayrılmış, Ələt azad iqtisadi zonasının konsepsiyasının işlənməsinə start verilmiş, işçi qrup yaradılmış və artıq işlər praktik müstəviyə keçmişdir”.

”Bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq”,-deyən Prezident İlham Əliyev əminliklə bildirib ki, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq: ”Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır”. Bəli, artıq 2023-cü il iyunun 9-da .



### AZAD İQTİSADİ ZONASININ BİRİNCİ MƏRHƏLƏSİNİN AÇILIŞI, GÖRÜLƏN İŞLƏR AZƏRBAYCAN PREZİDENTİNİN BÜTÜN TƏŞƏBBÜSLƏRİNİN REALLIĞA ÇEVRİLMƏSİNİN TƏSDİQİDİR

Bəli, Prezident İlham Əliyev prezidentlik fəaliyyətinin son 20 ili ərzində elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Dövlət başçımızın təməlqoyma mərasimində Azərbaycan Televiziyasına müsahibəsində söylədiyi kimi: ”Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır”.

Belə ki, Ələt azad iqtisadi zonasının birinci mərhələsinin açılışında bildirilib ki, Ələt azad iqtisadi zonasının ümumi sahəsi 850 hektardır. Azad iqtisadi zonanın ilkin inkişaf mərhələsi olan 60 hektar ərazidə (Zona 1, Mərhələ 1) tikinti işlərinə başlanılıb və bir sıra işlər görülüb. Belə ki, investorlara icarəyə veriləcək torpaq sahələri inşaat üçün artıq hazırdır. Ümumi sahəsi 297 min kvadratmetr olan torpaq sahələrinin daxilində su, kanalizasiya, işıq, qaz, rabitə şəbəkələrinə birləşmə nöqtələri təmin edilib. Burada, həmçinin istifadəyə hazır ərazi-daxili və ərazi-xarici mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Zona 1 ərazisinin əsas girişində gömrük-keçid məntəqələri, həmçinin gömrük yoxlanışlarının aparılması üçün binalar inşa olunub.

Həmçinin, Ələt azad iqtisadi zonasının Biznes Mərkəzi ilə bağlı qeyd olunub ki, ümumi sahəsi 16 min kvadratmetr olan Biznes Mərkəzinin binası 3 funksional hissədən ibarətdir. Burada Ələt azad iqtisadi zonasının Səlahiyyətli Qurumunun ofisi, investorlara vahid pəncərə prinsipi ilə xidmət göstərəcək ofis, investorların idarətmə qurumları üçün ofislər və təhkim olunan gömrük əməkdaşları üçün ofis fəaliyyət göstərəcək. Biznes Mərkəzində yüksəkkeyfiyyətli xidməti təmin edəcək müvafiq infrastruktur və maddi-texniki baza yaradılıb. Diqqətə çatdırıldı ki, növbəti inkişaf mərhələsində 138 hektar sahəni əhatə edən standart istehsal müəssisələri və logistika mərkəzləri üçün nəzərdə tutulmuş hissədə və eyni zamanda, 211 hektar sahəni əhatə edən ağır sənaye müəssisələri üçün hissədə layihələndirmə işləri davam edir. Növbəti inkişaf mərhələsinə aid 138 hektar sahədə torpaq işlərinə tezliklə başlanılması planlaşdırılır.

Bir sözlə, Ələt azad iqtisadi zonası Prezident İlham Əliyevin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təməllərindəndir. Bu layihənin icrası nəticəsində Azərbaycana daha çox xarici investisiyalar cəlb olunacaq və yeni iş yerləri yaradılacaq.

### ƏLƏT AZAD İQTİSADİ ZONASININ YARADILMASI ÖLKƏMİZDƏ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA AÇILAN YENİ SƏHİFƏ: XARİCİ SƏRMAYƏDARLAR ÜÇÜN MARAQLI İNVESTİSİYA MƏKANINA ÇEVRİLƏCƏK

Bəli, Ələt azad iqtisadi zonasının yaradılması ölkəmizdə qeyri-neft sektorunun inkişafında açılan yeni səhifə kimi böyük əhəmiyyətə malikdir. Dövlət başçımızın söylədiyi kimi, xüsusi qanunlarla idarə ediləcəyinə görə Ələt azad iqtisadi zonası xarici sərmayədarlar üçün maraqlı investisiya məkanına çevriləcək. Və burada yaradılacaq sosial infrastruktur və xarici sərmayədarlar üçün təqdim ediləcək imkanlar baxımından digər ölkələrdəki oxşar zonalardan daha cəlbedici olacaq. Həmçinin, Ələt azad iqtisadi zonası xüsusi statusla, hasilatın pay bölgüsü statusuna bərabər statusla fəaliyyət göstərəcək. Bu statusun verilməsi xarici investisiyanın cəlb edilməsi baxımından vacibdir. Yeni güzəşt mexanizminin tətbiq olunması Ələt azad iqtisadi zonasına xarici investisiya cəlbini artıracaq. Azərbaycanın öhdəliklərinin, eləcə də Ələt azad iqtisadi zonasında rezidentlərin öhdəliklərinin ayrıca qanunla



müəyyənləşdirilməsi vacibdir. Təbii ki, bütün bunlar xarici investisiyanın cəlb edilməsinə imkan yaradacaq.

Ələt azad iqtisadi zonası həm də istehsalın təşviq edilməsi baxımından mühüm rola malik olacaq. Çünki həmin məhsulların, eləcə də xidmətlərin ixracından ölkəyə valyuta axını güclənəcək. Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bunun üçün də qeyri-neft sektorunu inkişaf etdirmək vacibdir. İndiyədək bu istiqamətdə xeyli iş görülüb. Xüsusilə, texnoparkların və sənaye zonalarının yaradılması sayəsində qeyri-neft sektorunda məhsul istehsalı ildən-ilə artmaqda davam edir. Beləliklə, Ələt azad iqtisadi zonasının fəaliyyətə başlaması Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bundan başqa, bu layihənin icrası nəticəsində ölkəmizin milli iqtisadiyyatının dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənəcək.

Bir sözlə, dövlət başçımızın Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında SƏRƏNCAMI yuxarıda söylədiklərimizin gerçəkliyə çerilməsinin göstricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: ”Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır”.

**RƏFİQƏ KAMALQIZI**

# ABŞ səfirinin mövqeyində GÖRMƏMƏZLİK, YALAN, MANİPULYASİYA VƏ TƏXRİBATÇILIQ

***ABŞ-ın Ermənistandakı səfiri Kristina Kuin nə dərəcədə ermənipərəst olduğunu və eləcə də Ağ Evin işğalçı ölkənin tərəfində olduğunu açıq-aşkar büruzə verməkdən qətiyyən çəkinmir və heç çəkinmək fikrində olduğu da görünmür. Görünən odur ki, Kuin çox şeyi görməməzliyə vurmaqla yanaşı, yalanlar, təxribatçı fikirlər də səsləndirməyə davam edir. Kristina Kuinin açıqlamalarından da görünür ki, bölgədə vəziyyətin tamamilə dəyişməsinə, yeni reallıqlar yaradılmasına baxmayaraq, onun mövqeyi dəyişməz olaraq qalır və xanım səfir hələ də davamlı şəkildə manipulyasiyalar etməkdədir.***

Nə rəsmi Vaşinqtonun, nə də şəxsən səfir Kristina Kuinin reallıqları və həqiqətləri görmək istəmədiyi ötən həftə Zəngəzur bölgəsində səfərdə olan səfirin açıqlamalarından da bəlli olur. Səfirin öz açıqlamalarına, məhz ABŞ prezidenti Co Baydenin Ermənistanın baş nazirinə, Vaşinqtonun Ermənistanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünü dəstəklədiyini ifadə edən məktubunu xatırlatmaqla başlaması ən çox diqqətçəkən məqamdır. Onun açıqlamasından bəlli olur ki, ABŞ prezidentinin mövqeyi və Ermənistanla bağlı fikirləri fonunda reallıqları, özü də Azərbaycanın yaratdığı reallıqları qətiyyən görmək, etiraf etmək istəmir. Görünür, elə bu dəfə də özünü görməməzliyə buna görə vurur.

Kristina Kuin nəyi görməməzliyə vurur? ABŞ-ın Ermənistandakı səfiri görülməli olanları niyə görmək istəmir? Bax, bu suallar əsl mahiyyətin nədən ibarət olduğunu müəyyən etmək üçün kifayət edir. Çünki Kuin kor deyil və Zəngəzurda qeyri-adi nə isə baş vermədiyini görür. Eləcə də, görür ki, Ermənistanın dövlət sərhədlərini pozan, ərazisinə daxil olan yoxdur və Azərbaycan tərəfi belə bir niyyətdə də deyil. Hətta sərhədlərin belə, hələ də konkret olaraq müəyyən edilmədiyi bir zaman kəsiyində bunu iddia etmək də cəfəngiyyat sayılır. Deməli, xanım Kuin səfər etdiyi ərazilərdə gördüklərini qoyur bir kənara, yaxud özünü görməməzliyə vurur və ABŞ prezidentinin məktubunu xatırladaraq, həm ermənilərə, həm də onu 2022-ci ildə Ermənistana göndərən prezidentə yaltaqlanmağı daha üstün, daha doğru və müvafiq hesab edir. Öz aramızdır, xanım səfir bununla da ABŞ demokratiyasının "necə" olduğu barədə kifayət qədər fikir formalaşdırır. Belə məlum olur ki, ABŞ və onun Ermənistandakı səfiri gördüyünü yox, görmək istədiyini, tapşırılanı ifadə edir. Bu, ümumilikdə Qərbin dəm vurduğu və onun bir çox ölkələrdə görmək istədiyi demokratiyanın əsl üzü olaraq ortaya çıxandır. Belə bir demokratiya heç bir ölkəyə, ələlxüsus da bizə lazım deyil və bütün bunları müşahidə edən dünya ictimaiyyəti əsl, həqiqi demokratiyanın Azərbaycanda olduğunu gec də olsa etiraf etməlidir.

Özünü "demokratiyanın beşiyi" kimi təqdim edən ABŞ əslində, necə və hansı mövqedə olan bir dövlətdir? Bəzən fövqəl dövlət kimi qələmə verilən bu "demokratiyanın beşiyi" olan ölkə üçün əslində, reallıqlar və həqiqətlər nə qədər, nə dərəcədə əhəmiyyət kəsb edir? Bu suallara cavab axtarılan zaman bir çox məqamlar ortaya çıxır, özü də çox maraqlı olan bu məqamlar diqqəti cəlb edir və əsl həqiqətin nədən ibarət olduğu barədə doğru fikir formalaşdırır. Xatıladaq ki, öz prezidentlərinin şəxsində ABŞ Azərbaycanın suverenliyini və eləcə də ərazi bütövlüyünü hər zaman dəstəkləyib. Hətta Azərbaycan ərazilərinin 20%-nin Ermənistanın işğalı altında olduğu dövrdə belə rəsmi Vaşinqton ölkəmizin ərazi bütövlüyünü dəstəkləyib, amma bunu yalnız sözdə edib və bu sözlər heç vaxt reallıqda öz əksini tapmayıb. Yəni, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən Amerika Birləşmiş Ştatları kimi bir dövlət bu istiqamətdə, daha dəqiq desək, ölkəmizin ərazi bütövlüyünün təminatı istiqamətində əməli addımlar atmayıb. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasına əsrin üçdə birinə yaxın müddət ərzində ABŞ heç bir şəkildə töhfə verməyib və bir nəticə belə əldə etməyib. Ələlxüsus da, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün yaradıldığı bildirilən ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olmasına baxmayaraq, nəinki Ermənistana qarşı bircə dənə də olsun sanksiya tətbiq etməyib, işğalçı ölkənin qanunsuz, insanlığa sığmayan əməllərinə görə heç öz narazılığını belə İrəvana ünvanlamayıb. Azərbaycan ərazisinin düz beşdə birini işğal edən ölkəyə 30 il ərzində bircə dəfə də olsa, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə məhəl qoymadığını xatırlatmayıb və belə bir niyyəti də diqqəti cəlb etməyib.



Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə Azərbaycanın təbii sərvətlərinin ermənilərin vəhşicəsinə talan etməsinə, xalqımıza məxsus mədəni, tarixi və maddi isrin məhv edilməsinə əsrin üçdə birinə yaxın müddət ərzində ABŞ göz yumub. Qondarma demokratiya oyunlarını Ermənistanda məharətlə qura bilən ABŞ, məhz Nikol Paşinyanın timsalında marionetlərin, Qərbin oyuncaqlarının və oyunçularının formalaşması üçün hər il külli miqdarda maddi vəsaitlər ayırıb, amma Azərbaycanın haqq işi uğrunda mübarizəsinə qeyri-maddi də olsa belə dəstək göstərməyib. Ermənistanın ölkəmizə silahlı təcavüzü, soyqırım və etnik təmizləmə siyasəti aparması, ölüm, iş-gəncə təhdidləri fonunda yurd-yuvalarını ayaqyalın, başıaçıq tərk etmək məcburiyyətində qalan, kilometrlərlə qarlı dağlıq yolları ayaqları donaraq piyada gedən Qarabağdan olan bir milyondan çox azərbaycanlı məcburi köçkünlərə 30 il müddətində bircə dəfə də yardım etməyən ABŞ, ölkəmizin işğal olunmuş ərazilərində qanunsuz olaraq məskunlaşan, sonuncu anti-terror tədbirlərindən sonra da məskunlaşdıqları əraziləri heç bir təhdid və təhlükə olmadan, könüllü şəkildə, öz istəkləri ilə, özü də bütün məişət əşyalarını belə götürərək, avtomobil yolu ilə öz avtomobillərində tərk edən 5-10 min erməniyə heç bir ay, yeni 30 gün keçməmiş yardımlar ayırıb. Müqaisə olunacaq belə faktlar olduqca çoxdur, amma hər halda bu sadalananlar özü ABŞ-ın regionda real məqsədlərinin nə olduğu barədə aydın təsəvvürün yaranması üçün kifayət edir. Daha doğrusu, bütün bunlar onu deməyə əsas verir ki, rəsmi Vaşinqton Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamasını istəyirmiş və niyyəti də Bakı və İrəvana təzyiq mexanizmlərinə, rıçaqlarına sahib olmaqdır. Elə buna görə də indi Azərbaycana heç bir təsir göstərə bilməyən ABŞ, məhz Ermənistanda istədiyi mənzərəni formalaşdırmaq və Cənubi Qafazla bağlı planlarını gerçəkləşdirmək, öz mövcudluğunu təmin etmək üçün hərəkət edir və bu fonda da Vaşinqtonu maraqlandıran demokratiya, həqiqət və reallıq deyil, məqsədlərinə nail olmaqdır. Səfirini də öz istədiyi kimi, həm də öz oyunlarında oynamağa məcbur etmək, istədiyi mövqedə saxlamaq niyyətini də ABŞ onsuz da gizlətmir.

Azərbaycanın mədəniyyət beşiyi olan Şuşanın azad edilməsindən üç il keçməsinə baxmayaraq, ABŞ-ın ölkəmizdəki səfiri bircə dəfə də olsa, həmin ərazilərə səfər etməyib. Amma bunun fonunda məhz ABŞ-ın Ermənistandakı səfirinin həmin ölkənin regionlarına aktiv səfərlərini müşahidə edirik. Müşahidə edirik ki, heç bir yenilik, heç bir dəyişiklik etməyən ölkədə fəaliyyət göstərən ABŞ səfiri dəfələrlə həmin ölkənin ərazilərinə səfər edir, amma işğaldan azad edilmiş ərazilərində bu qədər möhtəşəm planlarını gerçəkləşdirən, quruculuq-abadlıq işləri aparan Azərbaycanın həmin bölgələrinə dırnaqarası da olsa, "demokratiyanın beşiyi" olan ölkənin ölkəmizdəki səfiri bircə dəfə səfər etmir. Maraqlıdır ki, ABŞ görülən işləri görmək istəmir, yoxsa görməyə gözü yoxdur? Hər şey göz önündədir və Azərbaycanın yeni reallıqlar yaratmasına, regionda vəziyyətin yaxşıya doğru dəyişməsinə baxmayaraq, Amerikanın siyasətinin dəyişmədiyini görürük. Görürük ki, ABŞ yenə də Cənubi Qafqazda öz niyyətini gerçəkləşdirmək üçün bulanıq suda balıq tutmaq istəyir və bunun üçün də şəffaflığın olmadığı ölkəni, Ermənistanı seçib. Hər halda ortada olan mənzərə öz sözünü deyir və ABŞ-ın Ermənistandakı səfirinin dedikləri məhz Ağ Evin mövqeyini ortaya qoyur. Əks halda, Kristina Kuin heç bir təxribatçı bəyanatlar, açıqlamalar vermədən, sadəcə olaraq, Ermənistan Respublikasını gəzər və reallığın nədən ibarət olduğunu nəinki görər, hətta etiraf edərdi. Amma bunu müşahidə edən olmadı və deməli, fikirlərimizdə və gəldiyimiz qənaətimizdə haqlıyıq...

ABŞ adından çıxış edən, Vaşinqtonun mövqeyini açıq şəkildə göstərən Kristina Kuin kimdir, sualı da bu məqamda yerinə düşür. Çünki bu sualın cavabını axtardığımız zaman maraqlı məqamlar ortaya çıxır. Bəlli olur ki, bir zamanlar Amerikanın məşhur "Los Angeles Times" nəşrində çalışan xanım Kuin diplomatik fəaliyyətə 1992-ci ildə başlayıb və onun ilk diplomatik xidmət yeri Amerikanın Parisdəki konsulluğu olub. Daha sonra ABŞ Dövlət Departamentinin Avropa Bürosunun əməkdaşı olan, Amerikanı Avropa İttifaqında, Brüsseldə təmsil edən, iki il Rusiya Federasiyasında səfirlikdə çalışan, 2008-2010-cu illərdə ABŞ prezidentinin administrasiyası yanında Təhlükəsizlik Şurasında işlədiyi zaman Avropa İttifaqı və Şərqi Avropa ölkələrinin məsələləri ilə məşğul olan şöbəyə rəhbərlik edən və bir sıra işlərə cəlb edilən Kristina 2016-cı ildə yenidən Fransanın paytaxtında, səfirin müavini və iqtisadi məsələlər üzrə müşavir olaraq çalışıb. Göründüyü kimi, ABŞ-ın Ermənistandakı səfirinin iş fəaliyyətində Fransa da yer alır və özü də iki dəfə Parisdə çalışdığı bəlli olur. Bəlli olur ki, ABŞ heç də Kuini təsadüfi olaraq, Ermənistana səfir təyin etməyib. Heç şübhəsiz ki, rəsmi Vaşinqton onun Fransada çalışdığını, Parisin Ermənistana münasibətindən irəli gələn təsirləri və bu təsirlər fonunda Kuinin ermənipərəst mövqeyini nəzərə alıb. "Regional münaqişə və xarici təcavüzdən Zəngəzurun xüsusilə təsirləndiyini və bu yaxınlarda Dağlıq Qarabağdan didərgin düşmüş 100 mindən çox etnik ermənini qəbul etdiyini" bildirməklə primitiv yalan danışan və manipulyasiya edən Kristina Kuini ABŞ elə belə avantüristliyinə görə Ermənistana səfir təyin edib. Məhz onu təyin edib ki, ştatlara lazım olan şəkildə, lazım olduğu məqamda belə ortaya atılsın və təxribat xarakterli açıqlamaları ilə ABŞ siyasətinə xidmət etsin.

Nə Zəngəzurda, nə də bu ölkənin heç bir yerində Ermənistan heç bir xarici təcavüz görməyib. Amma dinc Azərbaycan şəhərləri 44 günlük müharibə zamanı Ermənistan ordusunun raket hücumlarına məruz qalıb və nəticədə çoxlu sayda dinc vətəndaş həyatından, bir çoxu da sağlamlığından məhrum olub. Bu raket zərbələri isə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın şəxsi göstərişi ilə həyata keçirilib. Amma onun da, ölkəsinin də ünvanına heç bir qınaq yoxdur. Amerikalı senator və konqresmenlərdən heç biri bu vaxta qədər bu cinayətlərə görə Ermənistana və Ermənistan hakimiyyətinə qarşı sanksiyaların tətbiqini tələb etməyib. Əksinə, Ermənistanı zərərçəkən tərəf kimi təqdim etmək cəhdlərinin gücləndiyini görürük və bu cəhdlər hələ də davam edir. Elə ABŞ-ın Ermənistandakı səfiri özü də məhz bunu edir. O, Azərbaycanın işğal olunmuş ərazilərində onilliklər ərzində qeyri-qanuni məskunlaşan ermənilərin Ermənistan Respublikasının pasportuna sahib olduqlarını dəqiqləşdirmədən, yaxud bilərəkdən, utanmadan və çəkinmədən təxribat xarakterli açıqlamalar verib. Hələ bir dırnaqarası "qaçqın" statusu barədə də danışıb, halbuki bundan nə söhbət gedə bilərdi, nə də Ermənistan onların qəbulundan imtina edə bilməzdi.

Ermənistanın Qarabağı tərk edənləri qəbul etməsinə gəlincə isə, vəziyyətin nə yerdə olduğu da hamıya bəllidir. Hər halda, cəmi bir ay ərzində, Qarabağ iqtisadi rayonundan Ermənistana köçən 10 mindən çox erməninin artıq bu ölkəni tərk edərək xaricə miqrasiya etməsi faktı məsələnin nə yerdə olduğu barədə kifayət qədər təsəvvür yaradır. Əslində, bu məqam özü, rəsmi İrəvanın reallıqda Qarabağ erməniləri ilə necə davranmasını göstərən məqamdır. Kristina Kuin onu da bilmirmi ki, Ermənistan İstintaq Komitəsi sentyabrın 19-da keçirilən aksiyada iştirak edən gəncləri hələ də saxlamaqda davam edir və saxlanılanların əksəriyyəti də Qarabağ erməniləri, 17-20 yaş arası gənclərdir? Bilir, çünki bu barədə artıq sosial şəbəkələrin erməni seqmentində kifayət qədər məlumatlar var və üstəlik bu barədə vəkil Arsen Babayan da öz Facebook səhifəsində yazıb. Ermənistan blokunun deputatı Qeqam Manukyan isə, biri azyaşlı olmaqla, 4 Qarabağ erməninin saxlandığını bildirib və qeyd edib ki, onların hamısı kütləvi iğtişaşlarda iştirak ittihamı ilə saxlanılıb. Məsələ burasındadır ki, ABŞ-ın Ermənistandakı səfiri bu məqamlara ya diqqət yetirməyib, ya da diqqət yetirməyə marağı belə olmayıb və özünü görməməzliyə vurub. Ona görə ki, xanım Kuinə də, ABŞ-ın özünə də Ermənistanda demokratiyanın olub-olmadığı qətiyyən maraqlı deyil. Amma bununla belə, səfir Kristina Kuinə tapşırılıb ki, "Ermənistanın Cənubi Qafqazda demokratiya çırağı olaraq qaldığını" bəyan etsin və görünür o da tapşırığı yerinə yetirir. Bunun üçün də ona həqiqətlər, reallıqlar barədə düşünmək belə lazım gəlmir və təxribat xarakterli açıqlamaları da ABŞ tərəfindən adi şəkildə qarşılanır. Lakin bütün bunlar ABŞ və bu ölkənin Ermənistandakı səfirinin mövqeyini ortaya qoyur və səfirin mövqeyində görməməzlik, yalan, manipulyasiya və təxribatçılıq özünü büruzə verir.

***İnam Hacıyev***

# Protein: dərman, yoxsa qida əlavəsi?



Müasir dünyada insanlar ideal bədən sahibi olmaq barədə daha çox düşünür, buna nail olmağın ən asan üsullarını axtarırlar. Bu sualın yeganə düzgün cavabı idmanla məşğul olmaq olsa da, bəzən bədənlərini gücləndirmək və əzələlərini möhkəmləndirmək istəyənlər müxtəlif həblərdən, qida əlavələrindən də istifadə edirlər. İdman qidalarını qəbul etmək olar və ya olmaz, onlar zərərlidir, yoxsa faydalı? - Bu məsələlər bu gün idman dünyasının ən mübahisəli mövzularından biridir. SİA mövzu ilə bağlı araşdırma aparıb.

İdmanla məşğul olanlar az hərəkətli həyat tərzi sürənlərlə müqayisədə 3-6 dəfə çox enerji sərf edirlər. Mütəxəssislər bildirirlər ki, idman qidalarını qəbul etdikdə fiziki aktivlik şərtdir, əks halda, bu, lazımsız əsəbi emosional gərginliyə səbəb ola, bəzi hallarda isə zədələrə və xəstəliklərə aparıb çıxara bilər.

## Protein nədir?

Proteinlər əzələ toxumasının əsasını təşkil edir. Bədənimizin bütün hüceyrələrinin böyük bir qismi proteinlərdən ibarətdir. Bu hüceyrələr davamlı olaraq yenilənməkdədir və bu səbəblə bədənimiz davamlı protein almaq məcburiyyətindədir. Əgər bədənimiz kafi miqdarda protein almazsa hüceyrələrimiz yenilənməz və əzələlərimizdə itki prosesi başlayır.

## Proteinin faydaları

- Əzələlərin böyüməsi, inkişafı və köhnələn əzələlərin yenilənməsi;
- Bədəndə yeni toxumaların meydana gəlməsi və bərpa edilməsi;
- Yaraların sağalması;
- İmmunitet sisteminin qüvvətlənməsi.

Gündəlik qəbul etməli olduğumuz enerjinin 20% -i proteinlərdən gəlməlidir. Bu sayədə gün içərisində boşalmağa başlayan əzələlərimizin bərpası mümkün olur.

Ancaq ehtiyacın artdığı sıx məşq prosesində qidalardan aldığımız protein ehtiyacımızı qarşılamaya və qəbul etməli olduğumuz protein ehtiyacı 40%-ə qədər arta bilər.

Bu vəziyyətdə professional və həvəskar olaraq idmanla məşğul olanlar üçün protein tozlarının qəbulu şərtdir.



## Protein tozu niyə istifadə edilməlidir?

İdmançıların, xüsusilə bodibildinq ilə məşğul olanların protein ehtiyacının iki qatına qədər artabiləcəyini nəzərə alsaq, bu qədər qidanı istehlak etmək mümkünsüzdür.

Ayrıca qidalar təbiətdə saf karbonhidrat, protein, yağ qaynaqları şəklində olmur. Bütün qidalar öz içində müəyyən nisbətlərdə karbonhidrat, protein, yağ ehtiva edir və bunları təhlil edərək istehlak etmə imkanımız yoxdur. Ehtiyacımız olan proteini almaq üçün bu qədər qida istehlak etmək çəki almağımıza səbəb ola bilər.

Heyvan qaynaqlı proteinlərin, eyni zamanda, doymuş yağ və xolesterol baxımından da zəngin olduğunu unutmamaq lazımdır.

Bu mərhələdə dövrəyə qida əlavələri olan protein tozları girməkdədir.

Gündəlik qəbul etdiyimiz protein miqdarı hesablandıqdan sonra alınması lazım olan əlavə protein, qida əlavələri təmin edilməlidir.

## Protein tozunun faydaları

İdmançı qidalanması: Atletlər və digər idmançıların protein ehtiyacı adi insanlardan daha çoxdur. Məşq zamanı və sonrasındakı protein ehtiyacını qarşılamaq, əzələ meydana gəlməsini sürətləndirmək, immunitet sistemini gücləndirmək üçün istifadə edilməlidir.

Anabolizma (Əzələ inkişafı): Protein möhkəmlətməsi, bədənin anabolik halda olmasını təmin edir. Anabolizma, əzələ inkişafı deməkdir. Bunun tərsi katabolizmadır və əzələ itkisini ifadə edir.

Böyümə hormonunun ifraz olunması: Sağlamlıq üçün düzgün bir hormon səviyyəsi də çox əhəmiyyətlidir. Kafi miqdarda protein alışı bədənin böyümə hormonu üçün lazımı qidaların almasını təmin edir. Böyümə hormonu əksikliyi maddələr mübadiləsini yavaşladır, əzələ itkisinə və müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilir.

Maddələr mübadiləsi: Daha əvvəl də qeyd etdiyimiz kimi bədən, proteini həzm üçün daha çox enerjiyə ehtiyac duyur, bu səbəbdən maddələr mübadiləsini sürətləndirir. Protein lazımi miqdardan az olduğunda bədənin maddələr mübadiləsini hərəkətə keçirərək yağ anbarlarını enerjiyə çevirməsi çətinləşir.

İnsulin: Protein, qandakı insulin səviyyəsinə köməkçi olur ki, bu, düzgün enerji dövrü üçün əhəmiyyətli bir faktordur.

## Nə zaman istifadə edilməlidir?

Protein əlavələrinin növünə görə istifadə zamanları dəyişir.

Səhər: Oyandıqdan sonra bədən ac vəziyyətdə olur. Bir müddətdir protein almadığınız üçün bədəniniz müsbət azot tarazlığını qorumanızı təmin etmək məqsədi ilə sürətli həzm üçün bir protein qaynağına ehtiyac duyur. Sürətli həzm edilməsi bədənimizin və əzələlərimizi dərhal bəslənməsini təmin edir.

Bu nöqtədə həm sürətli, həm də yavaş həzm üçün bir protein tozu istifadə yaxşı bir fikirdir. Bu, yumurta və pendir, ya da WHEY protein toz qarışığı kimi qatı bir protein qaynağı ilə WHEY protein içkisi ola bilər.

*Ardı Səh. 7*



# Protein: dərman, yoxsa qida əlavəsi?

Əvvəli Səh. 6

**Məşqdən Əvvəl:** Məşqdən əvvəl qəbul etdiyiniz protein siz məşq edərkən bədəninizdə müsbət azot tarazlığını qoruyacaqdır. Məşqdən Əvvəl WHEY Proteini qəbul etməyiniz, məşq zamanı bədəninizi və əzələlərinizi bəsləyəcəkdir.

**Məşqdən Sonra:** Məşq sonrası üçün yanaşmamız eyni ilə səhər kimi olmalıdır. Məşqdən sonra bədənin özünə gəlməsinə köməkçi olması, yorulan və acan əzələlərinizi bəsləmək üçün bədənə sürətli qarışan, WHEY Protein istifadə etməlisiniz.

**Günboyu:** Gün ərzində alınan nizamlı protein əlavələri ilə bərabər, yumurta kimi yavaş həzm proteinlər qəbul edilməlidir. İki yemək arasında alınan yavaş həzm olunan protein, bədəninizin gün ərzində müsbət azot tarazlığını qorumasını və davamlı əzələlərinizin bəslənməsini təmin edir.

**Gecə:** Yatmazdan əvvəl yavaş həzm olunan bir protein əlavəsi almaq, yatarkən azot tarazlığınızı maksimum səviyyəyə çıxarır. Bədənimiz gecə boyu böyümə hormonu ifraz etdiyi üçün onu gecə bəsləmək inkişaf üçün çox əhəmiyyətlidir. Bu səbəblə Kazein proteini yatmazdan əvvəl ən yaxşı seçimdir.

## Bəs həkimlər nə deyir? İdman qidalarının zərəri var?

Həkim-mütəxəssis Yazgül Abdiyeva bildirib ki, bu suala cavab tapmaq üçün, əvvəlcə idman qidalarının nə olduğunu və hansı məqsədlə istifadə edildiyini bilmək lazımdır: ”İnsan məşq edəndə orqanizm ağır yüklərə məruz qalır, idman qidalarının qəbulu isə orqanizmin qısa müddət ərzində bərpasını təmin edir, əzələ kütləsində dərialtı piylərin yaranmasının qarşısını alır. İdman qidaları təyin olunmuş dozalara riayət edilməklə qəbul olunduqda və yalnız yoxlanılmış keyfiyyətli məhsullardan istifadə edildikdə onların zərəri olmur. İdman qidaları ümumillikdə 6 növə bölünürlər. Protein-karbohidrat qarışıqları əzələ kütləsinin artmasını və məşqdən sonra enerjinin bərpasını təmin edir. Amin turşuları əzələ üçün ”tikinti materiallar”ıdır. Piyyandırıcı idman qidaları yağların yandırılmasına kömək edir. Vitamin və mineral kompleksləri orqanizmin ümumi tonusunu artırır. Qeynerlər məşq zamanı orqanizmin gücünün və dözümlüyünün artmasına imkan verir. Qeyd etmək lazımdır ki, idman qidaları kimyəvi məhsul deyil, onlar adi qida məhsullarından götürülən və insan orqanizmi üçün zəruri olan bəzi maddələrin əsasında hazırlanan təbii qida əlavələridir. İdman qidaları həzm və ifrazat sisteminə heç bir zərər gətirmir, orqanizmdə tez həzm olunur. Lakin idman qidaları təbii qida əlavələri olaraq, ənənəvi məhsulları və qidaları əvəz etmir, orqanizmi çatışmayan mikro və makroelementlər ilə təmin edərək, sadəcə, onları tamamlayır”.

Y.Abdiyeva qeyd edib ki, gənclərin protein tərkibli preparatlardan istifadə etməklə əzələ kütləsini şişirdib cüssəli görünməsi də mümkündür: ”Yaz-yay aylarında ideal bədən quruluşuna sahib olmaq istəyən gənclərin ən çox üz tutduqları məkanlardan biri də trenajor zallarıdır. Təbii ki, ideal bədən quruluşuna sahib olmaq üçün müəyyən vaxt tələb olunur. Lakin aylarla məşq etmədən də əzələ kütləsini şişirdib cüssəli görünmək mümkündür. Gənclər protein tərkibli preparatlardan istifadə etməklə qısa zamanda istəklərini reallaşdıra bilirlər”.



Həkim bildirib ki, əzələ kütləsini artıran, fiziki gücü çoxaldan protein növləri oğlanlar arasında daha populyardır, lakin əksər hallarda özbaşına qəbul edilən protein tərkibli preparatlar insan sağlamlığına ziyan vurur. Bu preparatlar qaraciyərdə yağlanma, böyrəkdə daş əmələ gətirir, cinsi zəiflik yaradır: ”Əsl idmançıların qəbul etdikləri proteinlərin qiyməti çox baha olur. Lakin ucuz və keyfiyyətsiz maddələr idmançılar üçün məsləhət deyil. Bu gün bodibildinq və idman zallarında məşqlər keçən gənclərin əksəriyyəti protein qəbul edir. Nəzarətsiz olan həvəskar idmançılar uzun müddət məşq edib bədəni möhkəmləndirmək əvəzinə 10-15 manatlıq proteinlə əzələ kütləsini artırmağa üstünlük verirlər. Trenajor zallara gedərək protein qəbul edən gənclər istənilən halda bunu məşqçinin nəzarəti altında həyata keçirməlidirlər. Bu, ən azından sağlamlığı risk altına atmamaq baxımından önəmlidir. Keyfiyyətli protein preparatlarının həkimin və ya məşqçinin tövsiyəsi ilə üç ay ardıcıl qəbul edilməsi məsləhət görülür. Üç ay müddətində gəncin əzələləri şişir, bədəni müəyyən formaya düşür. Amma məşq etmədikdə qısa müddət ərzində bədən öz formasını itirir, şişmiş əzələlər yumşalır, dəridə qırışlar əmələ gəlir. Sonradan isə bədəni normal vəziyyətə qaytarmaq çox çətin olur”.







**Məşqçi Fövqi Əfəndi isə bildirib ki, doğru-düzgün məlumatı olmayan insanlar, hətta bir çox həkim və dietoloqlar belə proteinləri dopinqlərlə qarışıq salırlar:** ”Bu ikisi arasında çox böyük fərq var. Proteinlər təbii qidalardan hazırlanır. Ümumiyyətlə, protein ingilis dilindən tərcümədə ”zülal” deməkdir. Yəni, proteinlər zülalın toz halına gətirilmiş formasıdır. İdmançılar bunu bədəndəki bütün toxumaların inkişafı üçün istifadə edirlər. Hər bir toxumamız zülaldan ibarətdir. Zülal əskikliyi isə əzələ inkişafının daha gec getməsinə səbəb olur. Ona görə də protein istifadəsini məsləhət görürük. Əgər insanlar proteinləri dopinqlərdən fərqləndirmək istəyirlərsə, qeyd edim ki, dopinqlərin satısı leqal deyil. Yəni, dopinqləri hər hansı bir aptekdən və ya idman mağazalarından almaq mümkün deyil. Amma aptek və ya mağazalarda satılan proteinlər və ya Amin turşularını tam rahatlıqla alıb normal miqdarda qəbul etməklə istifadə edə bilərsiniz”.



İdman sağlamlıqdır, lakin bəzən belə qidalardan istifadə etməklə sağlamlığı görünüşə qurban vermək olmaz. Ona görə də bu qidaları lazımi ölçüdə və doğru şəkildə istifadə etmək məsləhət görülür.




***Ləman Sərraf***

# Paşinyan Moskvanı hədəfə alıb

## *Erməni KİV-ləri nə yazır?*

***Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyaya qarşı kəskin demarşları ilə Moskvanı qıcıqlandırmağa davam edir. Belə ki, Ermənistan KİV-lərinin məlumatlarına görə, Paşinyan 9 noyabr 2020-ci il üçtərəfli bəyannaməsində yolların açılmasını müəyyən edən 9-cu maddəni ləğv edəcəklərini iddia edib.***



### Milli Təhlükəsizlik Xidmətində Rusiyaya qarşı xüsusi bölmə yaradılacaq

"Jamanak" isə bildirir ki, erməni nazir uzun müddətdir bununla bağlı açıq-aşkar eyhamlar vurur, fikirlərini komanda üzvlərinə yetirməyə səy göstərir: "Amma 2024-cü ilin büdcə layihəsinin müzakirəsi zamanı o, bunu demək olar ki, açıq mətnlə söylədi və bildirdi ki, Milli Təhlükəsizlik Xidmətində xüsusi bölmə yaradılacaq və onun vəzifəsi rabitənin təhlükəsizliyini təmin etmək olacaq".



### Ermənistan müdafiə xərclərini 125% artırıb

"İndi biz Milli Təhlükəsizlik Xidmətinin tərkibində xüsusi bölmənin yaradılması prosesindəyik, onun məqsədi rabitənin təhlükəsizliyini təmin etmək olacaq. Bununla yanaşı, respublika ərazisindən insanların, yüklərin, malların və nəqliyyat vasitələrinin keçməsi üçün patrul polisini işə cəlb etdik", - deyə erməni baş naziri bildirib.

Qeyd edək ki, həmin sənədin 9-cu maddəsində "kommunikasiyalara nəzarət Rusiya FSB-nin sərhəd xidməti orqanları tərəfindən həyata keçirilməlidir" bəndi yer alsa da, rəsmi İrəvan həmin sənədin müvafiq maddəsini ləğv etməklə Moskvaya meydan oxumağa başlayıb. Bu arada daha bir məlumat maraqlı nüanslar doğurur. Belə ki, Ermənistan müdafiə xərclərini 125% artırıb.

Ermənistanın baş naziri Nikol Paşinyan 2024-cü ildə Ermənistanın müdafiə büdcəsinin 309 milyard dram (772 milyon dollar) artırılacağını bəyan edib. "Müdafiə büdcəsinin 309 milyard dram artımını xüsusilə qeyd etmək istərdim. Bu, 2018-ci ilin müdafiə büdcəsindən 125% çoxdur. Orduda islahatların aparılması bizim üçün vacibdir. Eyni zamanda qeyd etmək istərdim ki, müdafiə büdcəsinin artırılması bizim elan etdiyimiz "sülh gündəliyi"nə zidd deyil", - deyə Paşinyan bildirib.

***Afət Tahirqızı***

# "Heyvanlar heç bir emosiyalarını gizlətmirlər"

## *AYDINLIQ GƏTİRİLDİ*

"Heyvanlara bağlılıq təkcə müasir dövrün deyil, eyni zamanda əvvəlki dövrlərdə də insanlarda müşahidə olunan asılılıq növlərindən biridir. İlk öncə onu vurğulamaq istərdim ki, heyvanları sevmək və onlara qayğı göstərmək çox gözəl bir vərdişdir. Əlxüsus xüsusi qayğıya ehtiyacı olan uşaqların heyvanlarla dostluğu, onlarla bağ qurması da dəyərli və faydalıdır". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevroregulyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman- Klinik psixoloq Narınc Rüstəmova deyib.



Psixoloq bildirib ki, heyvanlar heç bir emosiyalarını istər sevgilərini, istərsə də kədər və aqressiyalarını gizlətmirlər: "Məsələn: pişiyə kobud rəftar etsək, ona aqressiv davransaq o özünü müdafiə mexanizminə keçəcək özünü bizdən qorumaq üçün fəndlər edəcək və o da bizə aqressiv yanaşacaq. Əksinə ona sevgi dolu yaxınlaşsaq, başına sığal çəksək bizi hər görəndə mırıldayacaq, bizə yaxınlaşacaq. Ona görə də depressiv vəziyyətdə olan insanlara ev heyvanları saxlamaq tövsiyyə olunur. Heyvanlarla bağ qurmaq, onlarla əylənmək, onlara qayğı göstərmək insanların depressiyadan qurtulmasına təsir edən faktorlardan biridir. Zaman keçdikcə insan bəslədiyi, qayğısına qaldığı ev heyvanı ilə emosional bağ qurur, sanki onu öz övladının yerinə qoyur. Xüsusən də qadınlarda analıq hissi çox güclü olduğuna görə, ev heyvanlarına qarşı hədsiz bağlılıq onlarda daha çox görülən haldır. Bu da qeyd etdiyim kimi, qadının təbiəti ilə bağlı bir duyğudur, sanki o heyvanı öz övladı kimi sevir. İnsan zəhmətini sevir, ev heyvanını nə qədər bəsləsə, nə qədər baxsa onu o qədər çox sevməyə, bağlanmağa başlayır.

Ancaq bir çox insanlar üçün heyvanları məsələn: itləri, quşları, pişikləri bəzən həyatda əvəzolunmaz bir elementdir. Bəziləri evsiz, maşınsız və ya ailəsi, yaxınları olmadan yaşaya bilər, lakin heç vaxt sevimli heyvanı olmadan yaşaya bilməz. Şöhrət zirvəsinə, cəmiyyətdə müəyyən yerə çatmış insanlar arasında heyvanlara hədsiz bağlılıq müşahidə edilir. Xüsusən də kino və səhnə dünyasının məşhurları arasında pişik asılılığının olması hallarına rast gəlinir. Bu bağlılığın, hədsiz sevginin diqqət çəkən bir tərəfi də var. Bu,"tənhalıq, heçlik qorxusu, sevgisizlik və dünyaya qarşı müdafiə mexanizmi yaratmaq" formasıdır. Kimisi bu boşluğu idmanla, kimisi yemək bişirməklə, kimisi normadan çox yemək yeməklə, kimisi də ev heyvanına hədsiz bağlılıqla doldurur.

Ümumiyyətlə, heyvanlara hədsiz dərəcədə çox bağlanan insanlar sosial həyatda ünsiyyət problemi, ünsiyyəti az olan insanlardır. Çünki düzgün bölən, ailəsinə, ətrafına, işinə doğru şəkildə zaman ayıran insan heyvana patalogiya səviyyəsində, yəni hədsiz dərəcədə bağlı olmur. Əgər bir insan normadan çox bir ev heyvana bağlıdırsa, hətta bu heyvana görə uzaq səyahətə çıxmırsa, onu yedizdirmək üçün büdcəsinə uyğun davranmırsa, xəstələnəndə saatlarla ağlayırsa, özünü günlərlə pis hiss edirsə, ailəsinə diqqət göstərmirsə bu doğru hal deyil. Belə ki, artıq onun heyvana qarşı sevgisi asılılığa çevrilmişdir. Çünki, nəhayətində bu onun həyat fəaliyyətinə təsir göstərir. Belə hallarda mütləq şəkildə psixoloq dəstəyi alınmalıdır. Əks halda bu proses uzun müddət davam edərsə insanın patalogiya səviyyəsində bağlı olduğu heyvanı öldükdə bunun sonu insanın intihar etməsinə qədər gətirib çıxara bilər. Əgər bir insan xəstəlik dərəcəsində hədsiz şəkildə ev heyvanına bağlıdırsa, heyvanını itirmə qorxusu yaşayırsa, demək olar ki, hər anını heyvanı ilə birlikdə keçirirsə onun həyatında güvənəcəyi bir insan, dostu yoxdur."

***Səbinə Hüseynli***



# İmtina

**Vəli Vəliyev**

### Paşinyan 10 Noyabr bəyanatının 9-cu bəndindən çıxdı, yoxsa..?

Ermənistan Baş naziri Nikol Paşinyanın oyunları bitmir. Hər gün bir rəng verir. Müttəfiqləri də Soros kimi ondan imtina etməyi düşünürlər. Amma Nikol onlardan tez tərpənib, deyəsən. Bu gün aldığımız xəbər erməni baş nazirin regionda destruktivlik naminə hansı pəstahadan çıxdığını ortaya qoyur. Azərbaycan 44 günlük müharibədən sonar, düz 3 il idi ki, Ermənistana hər kəsi qane edən sülh təklif edirdi. Eyni zamanda Zəngəzur dəhlizinin hər kəs üçün, xüsusən də Ermənistan üçün uğurlu gələcək vəd etdiyini hər addımda deyirdi. Ermənistan isə bu xoşməramlı addımlara qarşı özünün reallıqla heç bir əlaqəsi olmayan, daha çox ermənilərin revanşist duyğularından süzüb gələn mövqe ortaya qoyurdu. Məğlub Ermənistanı, təbii ki, heç kim dinləməyəcəkdi

10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu bəndində yazılanları bir daha diqqətinizə çatdıraq. Sənəddə deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir".

Əslində bu bəyanat imzalanan gündən Ermənistan tərəfi sənədin bütün maddılərini, bəndini təhrif edib, ya da ümumiyyətlə, başqa istiqamətə yozub. Sülhməramlıların yerləşdirilməsi, daxili qaçqınların öz evlərinə qayıtması kimi müddəalardan isə söhbət gedə bilməz. Ermənistan öz silahlı qüvvələrini Qarabağdan çıxartmadı, əksinə yeni silahlarla təmin etdi, özünün istehsal etdiyi minaları Azərbaycan ərazilərinə yeni qurbanlar üçün yerləşdirdi. Nəticədə 300-dər artıq soydaşımız mina qurbanı oldu. Müharibə ona görə dayandırıldı ki, separatçılığa son qoyulsun, Azərbaycanın suveren hüquqları tanınsın, ermənilərin reinteqrasiyası baş tutsun. Amma bunların heç biri olmadı. Naxçıvana çəkilən bütün kommunikasiya xətləri yarımçıq qaldı, Ermənistan tərəfi Zəngəzurda nəqliyyat xəttlərinin davamını gətirmək istəmədi. Bu günə qədər də heç bir iş görülməyib.

Paşinyan bəyanatda "nəqliyyat əlaqəsi üzrə nəzarətin Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarına verilməsi" bəndindən imtina edib. Uzun müddət idi ki, Paşinyan bununla bağlı eyhamlar vururdu. Ermənistan parlamentində 2024-cü il büdcə layihəsinin müzakirəsi zamanı baş nazir açıq mətnlə bildirdiki, Milli Təhlükəsizlik Xidmətində xüsusi bölmə yaradılacaq, onun məqsədi rabitənin təhlükəsizliyini təmin etmək olacaq. Bu isə sözügedən bəndin aradan qalxmasıdır.

Paşinyan bununla Zəngəzurdan keçəcək yüklərə də Ermənistan tərəfinin nəzarət edəcəyinə işarə vurub. Bu, o deməkdir ki, Rusiya Zəngəzurdan keçəcək yola nəzarət etməyəcək. Bu həm də o deməkdir ki, Ermənistan Zəngəzurda dəhliz yox, adi yol açmağı planlaşdırır. Ekspertlər bunu Nikol Paşinyanın Rusiyaya qarşı növbəti demarşı kimi də qiymətləndirirlər.

Əslində Paşinyanı danışdıran, onu Rusiyaya kafa tutmağa vadar edən məqam bir tərəfdən Fransanın timsalında Avropa Birliyinin təhrikçi siyasətidirsə, digər tərəfdən bölgədə formalaşan reallıqdır. Ermənistan Azərbaycandan Zəngəzur dəhlizinə görə çox güzəştlər qoparmaq niyyətində idi. Yola nəzarətdən tutmuş, rüsumlara qədər. Amma İrəvan bu məsələdə də uduzdu, imtahandan kəsildi, deyə bilərik. Fransanın regiona soxulmaq cəhdi və regional gücləri nəzərə almaması Ermənistanı da çətin duruma salıb. 30 ildir ki, Ermənistan bütün regional layihələrdən kənarda qalıb. Azərbaycanın razılığı olmadan hansısa beynəlxalq layihədə ola bilmənin xam xəyal olduğunu İrəvan çoxdan anlayıb. Rusiyanın ağuşundan düşən və həlelik himayəsiz qalan İrəvan Avropanın, Fransanın onu öz qanadı altına alacağını düşünürkən, həlelik bütün bunların baş verməd iyini anlamağa başlayıb. Rusiya isə İrəvanı həlelik qucağından yerə qoyub, amma ondan imtina etməyib.

Azərbaycan alternativ olmasa da, Naxçıvana gedən yolların bu dəfə İrandan keçəcəyini Ermənistana da sübut edib və artıq İranla bu sahədə müqavilələrin bağlandığını da hər kəs bilir. Deməli, İrəvan bu dəfə də Azərbaycanın təklifini dəyərləndirə bilmədi, ona uzanan əli dəf etməklə özünü quyunun dibinə saldı. Azərbaycan Zəngəzur dəhlizindən imtina etməyib, amma hələlik bu marşrut öz aktuallığını itirib. Zamanı çatanda Zəngəzurla da gedəcəyik. İrəvanın, daha dəqiq düsək, Paşinyanın 9-cu bənddən imtinası isə daldan atılan daşa bənzəyir. Nikol o daşın geri qayıdacağı günü gözləməli olacaq.

# Qarabağın zəruri imkanlara malik turizm potensialı



44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli Ordumuzun işğal altındakı torpaqlarımızı düşməndən azad etməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdığı kimi, ölkəmizin iqtisadi inkişafı üçün də yeni perspektivlər açmış oldu. Bu mənada, azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu ərazilərdə olan potensial əminliklə demək olar ki, dünyanın bütün qitələrindən olan turistlərin həmin məkanlara səfər etməsinə səbəb olacaqdır. Turizm üçün bütün zəruri potensial Şuşada, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərimizdə mövcuddur. Bu ərazilərin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri xarici turistlər üçün cəlbedici olacaq. Əlbəttə ki, coğrafi mövqeyinə görə əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Təbii ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti turizmin gələcək inkişafı üçün onun əsas prioritetlərini müəyyən edir. Bu gün Azərbaycanda turizm bazarı açıq və rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Müxtəlif sahələrlə yanaşı, ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi də hazırlanıb. Qeyri-neft sektorunun inkişafında turizm sahəsinin xüsusi çəkisi var.







Azad olunmuş ərazilərimizdə qısa müddətdə müasir infrastruktur qurulub. Belə ki, Zəngilan rayonunun Ağalı kəndinə Böyük Qayıdış həyata keçirilib. Digər yaşayış məntəqələrimizin yenidən qurulması və bərpası isə davam etdirilir. Qarabağda mövcud şərait - flora və faunanın rəngarəngliyi, iqlim, istirahət üçün zəruri hesab olunan amillər daha zəngin və cəlbedicidir. Bu amillər Azərbaycanın iqtisadi potensialının daha da yüksəlməsinə müsbət təsirini göstərəcəkdir. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə regionun turizm infrastrukturunu tamamilə məhv ediblər. Talançılıq missiyasını reallaşdıran Ermənistan "sivilizasiyalı" dövlət kimi dünya ölkələri tərəfindən qəbul olunmuş konvesiya, qərar, bəyanat və qətnamələrə əməl etməyib. İşğal dövründə adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələrə zərbə vurulub. Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə hazırda kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib.

Dünyanı ən nadir flora və faunası ilə zəngin olan Azərbaycan istirahət guşəsi kimi bütün imkanları özündə birləşdirir. Burada on bir iqlimdən doqquzunun mövcudluğu Azərbaycanın həqiqətən də cənnət beşiyi olduğunu əsasladıran amildir ki, ta qədimdən bu günə kimi tarixi sərvətləri ilə ölkəmizin qonağı olan insanların marağına səbəb olmuşdur.

Qarabağ torpağının işğal dövründə təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayonun ən böyük meşələrindən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olur.

Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. "Leşkar" meşə sahəsində isə yararlı ağaclar tam qırılıb. Buna Azərbaycan iqtisadi gücü, potensialı var. Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş cüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkindən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirəcəyik.

Turizm üçün bütün zəruri potensial Şuşada, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərimizdə mövcuddur. Bu ərazilərin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri xarici turistlər üçün cəlbedici olacaq. Ermәni vandallarının işğalına və təcavüzünə məruz qalmış tarixi abidələrimiz təmir və bərpa olunacaq və Azərbaycanın turizm məkanlarının coğrafiyası daha geniş bir məkanı əhatə edəcək. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən istirahət və müalicəvi məkanları dünyanın ən sayılıb-seçilən mərkəzləri olaraq diqqətdə olacaqdır.

Artıq Ağdamda abadlıq-quruculuq işlərinə start verilib. Ağdamın yeni, qaynar bir dövrü başlayıb. Ermənilərin vaxtilə dağıtdığı dini mədəniyyət abidələrimiz, tarixi yerlər yenidən bərpa olunacaq. Dövlət başçısının tövsiyə və göstərişləri əsasında şəhərdə 125 hektarlıq meşə zolağı salınacaq, süni göl yaradılacaqdır.

Buraya səfər edənləri heyrətləndirən çox məqamlar var. Görməli və gəzməli yerlərdə bir tarix yaşanır. 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə məscidi Azərbaycan memarlığının incilərindən sayılır. Bu məscid də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Qutlu Musa türbəsi, Xanoğlu türbəsi, Şeyx Nigari türbəsi, Uğrulla bəyin türbəsi və s. bu şəhərin tarixinin qədimliyini özündə yaşadır. Tarixi memarlıq abidələri sırasında Pənah xanın imarəti, İki sandığa bənzər abidə, Karvansara, Hatəm Məlik qalası və digərləri hər bir kəsin diqqətində ola biləcək nümunələrdir ki, turistlərin marağında olacaqdır. Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. Mənbələrdə qeyd olunur ki, muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da olub. Undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri muzeyə gələn ziyarətçilərdə böyük maraq yaradırdı.

Ağdamdakı hər bir tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirir və bu məkanın tarixi dönəmlərdə inkişafda olduğunu bir daha göstərir. Belə bir şəhərə səfər edəcək turistlər zəngin təəssüratlarını hər kəslə paylaşacaqlar.

Ölkəmizin hər bir bölgəsinin belə turizm imkanları vardır. Ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün ölkənin zəngin coğrafi landşafta, flora və faunaya malikliyi əsas şərtlərdəndir. Zəngin mədəni, tarixi irsə və əlverişli təbii şəraitə malik Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir.

***Nəzakət Ələddinqızı***

# Siqaretlə bilə-bilə ölümə...

*Siqaret çəkməyin zərərləri haqqında illərdir ki, bütün mətbuat orqanları, səhiyyə barbar bağırsa da, lakin söz dinləyən yoxdur. Görünür bu, elə bir alışqanlıqdır ki, ona nə ictimai qınaq təsir edir, nə maarifləndirmə kar salır, nə ağsaqqal sözü keçir, nə də həkim məsləhəti. Nəticə isə bu olur ki, dünyada hər il milyonlarla insan siqaret zəhərinin qurbanı olur. Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 8 milyondan artıq insan ölür. Onların 1 milyonu ətrafa yayılan tütün tüstüsü ilə nəfəs alan passiv tütün çəkənlərdir.*



## 1 milyard ölüm gözlənilir

XX əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyduğu halda, XXI əsrdə tütündən 1 milyard insanın ölümü gözlənilir. Çünki tütün ağ ciyər və ürək-damar, həmçinin bronxial xərçəng, xroniki bronxit, emfizema və bir çox xəstəliklərin səbəbkarıdır.

Maraqlıdır, dünyada elə bir adam tapılmaz ki, siqaretin zərərləri haqqında bilməmiş olsun. Belə isə insan nə qədər şüursuz məxluqdur ki, bilə-bilə istifadə etdiyi ona zərərdir, lakin ondan əl çəkmir. Yəni bu, o qədərmi vacibdir?..

Həqiqətən düşünəndə adamın həm gülməyi gəlir, həm də ağlamağı. Nə üçün insan sağlamlığına bu qədər sıradan bir hal kimi baxır? Nə üçün bütün dünyada siqaretlə bu qədər mübarizə aparılsa da, bu, insanlara əsla təsir etmir. Sanki bu barədə eşitmirlər, bilmirlər.

Hər dəfə bu həyat üçün təhlükəni dodaqlarına yaxınlaşdıranda onun zərərləri haqqında eşitdiklərini xatırlamırlar. Xatırlamırlar ki, ildən-ilə siqaret çəkənlərin sayı artır. Bu say artdıqca ölümlərin də sayı artır...







Dövlət Statistika Komitəsinin ”Ev Təsərrüfatı Tədqiqatının Əsas Yekunları”na dair 2020-ci ildə hazırlanan hesabatına görə, yaşı 15-dən yuxarı olanlar arasında siqaret çəkənlər 15,3 faiz təşkil edir. Bu rəqəm cəmi bir il sonra 15, 1 faiz olub.

Yaş qruplarına gəldikdə isə, siqaret çəkənlərin 0,2 faizi 15-19 yaşda (2021-ci ildə 0,1 faiz), 13,4 faizi 20-44 yaşda (2021-ci ildə 13,1 faiz), 21,7 faizi 45-64 yaşda (2021-ci ildə 21,9 faiz), 30,5 faizi (2021-ci ildə 14,4 faiz) 65 yaşdan yuxarı olan şəxslərdir. DSK-nın məlumatına görə, 15-19 yaşlılar 1,8 il (2021-ci ildə 1,0), 20-44 yaşlılar 10,1 il (2021-ci ildə 10,1), 45-64 yaşlılar 21,7 il (2021-ci ildə 21,5), 65 yaşlılar isə 30,5 il (2021-ci ildə 30,1) siqaret çəkir. 15-19 yaşlılar gündəlik olaraq orta sayla 9,5 (2021-ci il 10,0), 20-44 yaşlılar 13,9 (2021-ci il 13,8), 45-64 yaşlılar 15,5 (2021-ci il 15,5), 65 yaşdan yuxarı olan şəxslər isə 15,4 ( 2021-ci il 15,4) ədəd siqaret çəkirlər.

Göründüyü kimi, son iki ilin statistik hesabatında rəqəmlər bir qədər artıb-azalsa da, lakin elə bir fərqli rəqəm müşahidə olunmur. Buradan da o qənaətə gəlmək olur ki, bu qədər maarifləndirmə, bu qədər mübarizə qarşısında hələ də insan qəflət yuxusundan oyanıb sağlamlığının qeydinə qalmaq fikrində deyil. Məlumata görə, Azərbaycanda hər il 15 min nəfər tütün və onun yaratdığı müxtəlif xəstəliklərdən dünyasını dəyişir.

## Gənclikdən başlanan yol...

2022-ci ildə siqaret çəkmə tezliyinə görə 15 yaşdan yuxarı əhali arasında hər gün çəkənlər 96,1, aradabir çəkənlər 3,9, 15-19 yaş arasında əhali arasında hər gün çəkənlər 64,7, aradabir çəkələr 35,3, 20-44 yaş arasında hər gün çəkənlər 94,9, aradabir çəkənlər 5,1, 45-64 yaş arasında hər gün çəkənlər 97,4, aradabir çəkənlər 2,6, 65 yaş və yuxarı olanlar arasında hər gün çəkənlər 95,8, aradabir çəkənlər 4,2 faiz təşkil edir.

Göründüyü kimi, siqaret çəkmək alışqanlığı əsasən gənclikdən başlanır. Bu bəlaya gənclikdə düçar oldunsa, səninlə bir ömür yol gedəcək və yaşlı çağlarında elə bir problemlə üz-üzə qoyacaq ki, nə ondan əl çəkə biləcəksən, nə də yaşamaqdan vaz keçə biləcəksən. Ölümlə olum arasındakı məsafədə isə siqaret çəkmək yaşamağa üstün gələcək. Beləliklə xəstə kimi yaşayıb ölümünü gözləyəcəksən, çünki gənclikdən başlanıb gələn alışqanlığından əl çəkə bilməyəcəksən. Buna iradən yetməyəcək.

Gənclik çağında övladlarımızı həm biz valideynlər, həm də cəmiyyət qorumalıdır. Çünki siqaretlə insan arasında qısa bir yol var. O yolda siqaret səni üstələdisə, səninlə bir ömür yoldaşdır. Yox, əgər sən ona üstün gəldinsə, deməli, bir ömür sağlam həyat səni gözləyir.

Eləcə də məktəbdə yeniyetmə oğlan və qızlarla məktəb psixoloqları iş aparmalıdırlar. Oğlanlara siqaretlə bağlı dost təkliflərinin yersiz olduğunu başa salmalıdırlar. Qızlara siqaretin modanı tamamlayacaq vasitə olmadığını anlatmalıdırlar. Çünki onlar həyatın astanasındadır. Nəyi necə edəcəklərini anlamırlar. Bu yaş dövründə qorunan uşaq gələcəyə tütünsüz bir həyatla gedir. Tüstüsüz həyat isə sağlam ailə, sağlam övladlar, gözəl gələcək deməkdir.

Yox, əgər uşaqlarımızla vaxtında məşğul olmasaq, onlara vaxt ayırmasaq, qarşıda onları tüstülü bir həyat gözləyəcək. Bu isə gələcəyin qeyri-sağlam övladları, özlərinin isə hər an ölümü deməkdir. Ümumilikdə isə gələcək üçün xəstə ailənin təməlidir.

## Siqaret çəkən qadının dünyaya gətirdiyi uşaq cinayətə meyilli olur

Kişilərin siqaret çəkməsi nə qədər təhlükəlidirsə, qadınların ondan istifadəsi qat-qat təhlükəlidir. Çünki qadın gələcəyin anasıdır. O, dünyaya uşaq gətirəcək. Ana nəsil artırandır. Gələcək nəsillərin sağlamlığına birbaşa cavabdeh şəxsdir. Bəs belə isə, ana olacaq qadın əgər siqaret çəkirsə, onun sağlam övlad həyata gətirməsi mümkündürmü?

Mütəxəssis həkimlər vurğulayır ki, 10 il ərzində siqaret çəkən qadınların tibbi müayinələrinin nəticələrinə əsasən, onların siqaret çəkməyən qadınlara nisbətən 25 dəfə artıq ağciyər xərçəngi xəstəliyinə tutulması aşkarlanıb.

ABŞ-da 30-55 yaş arası 100 000 qadının iştirak etdiyi böyük tədqiqatın nəticələrinə əsasən, gün ərzində 1-14 arası nadirən siqaret çəkən qadınlarda ani ürək dayanması ilə əlaqədar erkən ölüm riski kifayət qədər yüksəkdir. Maraqlıdır ki, həm də qadınlar kişilərlə müqayisədə siqareti atmaq üçün daha çox çətinlik çəkirlər.

Araşdırma apararkən belə bir maraqlı faktla da rastlaşdım: Harvardda aparılan tədqiqat nəticəsində bəlli olub ki, hamiləlik dövründə siqaret çəkən qadınların dünyaya gətirdikləri övladları cinayətə qarşı daha çox meyilli olurlar. Tək bu fakt siqaretin tərkibini, onun nələrə qadir olduğunu göstərmirmi? Baxın ki, siqaretin qanda yaratdığı zəhərlənmələr dölə necə təsir edirsə, onun gələcək həyatında cinayətə meyillik yaranır. Həqiqətən çox maraqlı nüansdır. Siqaret çəkənlərin bəlkə də hansına sual versən ki, övladının gələcəkdə cinayətə meyilli olacağını bilirsənmi, adama gülərlər. Lakin elm bunu sübut edir və bu, qaçılmazdır.

Dövlət Statistika Komitəsinin hesabatında ölkəmizdə qadınların siqaret çəkməsi ilə bağlı məlumat göstərilməsə də, hamımıza məlumdur ki, siqaret çəkən qadın və qızlarımızın sayı heç də az deyil. Qadın gözəllik mücəssəməsidir. Bütün varlığı, vücudu ilə gözəllik saçır. Bəs barmaqlar arasında tutulan, dodaqlar arasına qoyulan siqaret, ağızdan çıxan tüstü, üst-başdan ətir əvəzinə gələn qoxu bu gözəlliyə xələl gətirmirmi?

## Siqaret çəkənlərin tüstüsündə boğulanlar

Çox təəssüf ki, siqaret çəkməyənlər çəkənlərin qurbanı olurlar. Onların tüstüsündə boğulub zəhərlənirlər. Belə ki, Azərbaycanda siqaret çəkməyənlərin 29% evdə, 41% isə qapalı ictimai yerlərdə tütünün təsirinə məruz qalır.

Böyüklər arasında passiv tütünçəkmə göstəriciləri son illər azalmasına baxmayaraq, hələ də yüksək olaraq qalır. Araşdırmalara görə kişilərin 28% iş yerlərində, qadınların 23% evdə tütün tüstüsünün təsirinə məruz qalır.

Bəzən siqareti tərgitmək istəyən insanlara da rast gəlirik. Onlar elektron siqaretə keçməklə siqareti tərgidəcəklərini zənn edirlər. Lakin mütəxəssis həkimlər deyir ki, elektron siqaretdən istifadə etmək ən azı adi siqaret qədər təhlükəlidir. Siqaretin insan orqanizmi üçün ən təhlükəli tərəfi onun tərkibindəki qətrandır. Həkimlər də ən əsas buna görə insanlara siqaretdən imtina etməni məsləhət görür. Nikotin aludəçiləri isə çıxış yolunu elektron siqaretdə görürlər. Amma yanılırlar, siqaretin tərkibində olanlar demək olar ki, elektron siqaretdə də mövcuddur və bu, insan sağlamlığı üçün birbaşa təhlükədir.

Bu məsələlərin ciddiliyi nəzərə alınaraq ölkəmizdə ”Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanun da qüvvəyə minib. Qanunu pozanların 30 manatdan 1000 manata qədər cərimə olunması müəyyənləşdirilib. Qanuna əsasən, tütün məmulatlarından (siqaret), sulu qəlyan və elektron siqaretdən istifadə müəyyən yerlərdə qadağan olunub. Hələ də aramızda bu qanuna zidd gedən insanlar var ki, onlarla hər kəs qarşılaşıb. Belələri haqqında tədbirlərin görülməsi sözsüzdür. Lakin onlar gözdən uzaq yerlərdə məqam düşən kimi ətrafa tüstülərini yaymaqla məşğuldurlar. Çox təəssüf, onlar arasında sürücülər də var ki, bəzən taksidə utanmazcasına səndən ”siqaret çəkə bilərəmmi?”,- deyə soruşurlar...

Nə qədər ki, hələ də qanundan xəbərsiz insanlar var, onlar cəmiyyət arasında özlərini lazımi səviyyədə apara bilməyəcək və bizlər də passiv siqaret çəkən olaraq qalacağıq.

***Mətanət Məmmədova***

# Aqrar istehsal həcmi potensiala adekvat deyil:
# Səbəblər və çıxış yolları

***Azərbaycanda iqtisadiyyatın diversifikasiya edilməsi məqsədilə qeyri-neft sektorunun inkişafı hökumət tərəfindən əsas prioritet elan edilib. Bu məqsədlə bir sıra sahələrə, o cümlədən aqrar sektora maliyyə dəstəyinin verilməsi üçün bəzi addımlar atılıb. Kiçik və orta sahibkarlığın inkişafına yardım üçün güzəştli kreditlərin və subsidiyaların verilməsi təşkil olunub. Fermerlər bir sıra vergilərdən azad olunub və güzəştli qiymətə kübrə və texnika ilə təmin olunur. Lakin bu sahənin daha sürətli və kompleks inkişafı üçün bəzi digər tədbirlərə də ehtiyac var.***

Azərbaycanda iqtisadiyyatın və ixracatın diversifikasiya olunmasına təsir göstərə biləcək 20-dən artıq qanun qəbul edilib. Bundan başqa, bəzi dövlət proqramları təsdiq olunub, müxtəlif fondlar yaradılıb.

Bu tədbirlərin əsas məqsədi kimi ölkədə qeyri-neft sektorunun inkişafının, iqtisadiyyatın şaxələndirilməsinin, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafın təmin olunması elan edilib.

Diversifikasiya proqramı ixrac yönümlü qeyri-neft sektorunun inkişafını hədəf kimi götürüb. Buraya kənd təsərrütatı məhsulları istehsalı, yeyinti sənayesi, balıqçılıq, tütünçülük də daxil edilib. Lakin həyata keçirilən dövlət proqramlarına baxmayaraq, ölkə iqtisadiyyatında regionların çəkisi əhəmiyyətli dərəcədə artmayıb.





Kömrük Komitəsinin idxalla bağlı açıqladığı rəqəmlər ölkəyə ərzaq məhsullarının gətirilməsinin artdığını göstərir. Bu da aqrar sektorda bəzi sahələr üzrə istehsalın azaldığını göstərir. Ölkə ərazisinin təxminən 2,5 faizini təşkil edən Bakı-Abşeronda ÜDM-in ən azı 70 faizi formalaşır. Bu zonanın büdcə daxilolmalarında payı digər iqtisadi rayonlar üzrə ümumi daxilolmalardan dəfələrlə çoxdur. Regionların büdcə daxilolmalarında payı 10 faizi keçmir.

Sektorial diversifikasiya da reallaşmayıb. İxracın 90%-dən çoxu, ÜDM-in və büdcənin yarıdan çoxu neft-qaz sektorunun bazasında formalaşır ki, bu da arzuolunan vəziyyət deyil.

Son dövrlərdə görülən bütün tədbirlərə baxmayaraq, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması problemi tam həll olunmayıb. Ən müxtəlif qiymətləndirmələrə görə, hazırda əhalinin ərzaq istehlakının ən azı 40%-i idxal hesabına formalaşır. Halbuki, respublikanın təbii-iqlim şəraiti, məşğulluq baxımından əhalinin tarixi ənənələri aqrar sektorun həm idxalı əvəzləyən, həm də ixrac yönümlü sektor kimi inkişafını şərtləndirir. Təəssüf ki bu sahədə aparılan siyasət hələ öz nəticələrini verməyib.

İqtisadi fəal əhalinin əhəmiyyətli hissəsinin gəlir mənbəyi aqrar sektordur. Rəsmi statistik məlumata görə, hazırda kənd təsərrüfatının ümumi məşğulluqda payı 40% təşkil edir. Aqrar sektor həm ixrac, həm də iqtisadi diversifikasiya üçün böyük potensialı olan sahədir. Bu sektor istər birbaşa istehlaka gedən ərzaq məhsulları, istərsə də emal sənayesi üçün birbaşa xammal bazasıdır. Təəssüf ki, bu potensialdan yararlana bilmirik.

Qlobal iqlim dəyişiklikləri nəticəsində və pandemiya dövründə yaranmış çətinliklərlə effekt verərdi. Bu da kadrlarla bağlı olan məsələdir. Bu sahədə uğur qazanmış ölkələrin təcrübəsindən istifadə edilməlidir.

Beləliklə, aqrar sektorun ÜDM-də, ixracda çəkisinin xeyli az olması və ölkəyə ərzaq idxalının artması onu deməyə əsas verir ki, bu sahədə həll olunması vacib ciddi problemlər var. Ölkədə kənd təsərrüfatına yararlı torpaqlar 4,7 milyon hektar, əkin torpaqları 1,6 milyon hektar təşkil edir. KTN-nin məlumatlarına görə, bu qədər sahədən 3 milyon tona yaxın dənli və paxlalı bitkilər, 2,5 milyon tondan artıq tondan artıq meyvə-tərəvəz, 1 milyon tona yaxın kartof, 150 min ton üzüm, 175 min ton şəkər çuğunduru, 350 min tona yaxın pambıq əldə olunur.

2023-cü ilin aprel ayının 1-nə Azərbaycanda iribuynuzlu heyvanların sayı 2 mln. 551.8 min baş, xirdabuynuzlu heyvanların sayı isə 7 mln. 360.8 min baş təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu heyvanların sayı 4.3% və ya 115.1 min baş, xırdabuynuzlu heyvanların sayı isə 9.9% və ya 808 min baş azalıb. Xatırladaq ki, cari ildə iribuynuzlu və xırdabuynuzlu heyvanların sayı azalaraq son 10 ilin ən aşağı həddinə düşüb.

2023-cü ilin yanvar-sentyabr aylarında quş əti də daxil olmaqla diri çəkidə 424,5 min ton ət, 1682,9 min ton süd, 1662,7 milyon ədəd yumurta, 15,1 min ton yun, 357,0 ton barama istehsal olunub. 2022-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,2 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 11,9 faiz, barama istehsalı 4,6 faiz artıb, yun istehsalı isə 3,0 faiz azalıb.

Ekspertlərin ümumi fikrincə, istehsal mövcud potensiala adekvat deyil. Halbuki,





bağlı, iqtisadiyyatın diversifikasiyasında əsas prioritetlərdən elan edilən aqrar sektor hələ də ölkənin ərzaq təhlükəsizliyini təmin edəcək gücə yetişməyib.

Digər ölkələrdən fərqli olaraq, bizdə texniki bitkilərin əkinləri üzrə məhsuldarlıq xeyli aşağıdır. Taxıl, pambıq, tütün, üzüm, barama kimi sahələrdə daha çox məhsul əldə etməyə imkan var. Bu işə elmi yanaşma tələb olunur.

Burada müxtəlif faktorların rolu vardır. Onlardan biri də kadr məsələsidir. Aqrar sahəyə yaxşı mütəxəssislər rəhbərlik etməlidir, aqrotexniki qaydaları bilən, ərazilərin coğrafiyasına uyğun sahələrin inkişafına töhfə verən savadlı kadrlara ehtiyac böyükdür. Gəncədəki Aqrar Universitetdə belə kadrların hazırlanması işi təşkil edilib, amma bu işi daha da genişləndirmək lazımdır.

Bundan başqa, subsidiyaların idarə olunmasında peşəkarlıq da vacibdir. Qəbul olunan proqramların, dövlət yardımlarının səmərəli və düşünülmüş şəkildə tətbiqi yaxşı bu sahəyə daha güclü dəstək göstərilsə və burada korrupsiya və monopoliya halları aradan qaldırılsa, daha yüksək nəticələr əldə etmək olar. Bundan başqa, fondların fermerlərə kredit dəstəyi artırılmalı, investisiyalar regionlar və sahələr üzrə, həmçinin sahələr üzrə düzgün bölünməlidir.

Aqrar sektorda məhsuldarlığın artması, dolayı yolla digər sahələrin də inkişafına kömək göstərəcək. Aqrar-sənaye, yüngül sənaye sahələri daha çox inkişaf edəcək. Son nəticədə, həm idxaldan asılılığımız azalacacaq, həm ÜDM artacaq, həm də qeyri-neft sektorunun inkişafına təkan olacaq. Aqrar sektor işçilərinin peşə bayramı olduğuna görə bir çox problemləri bu yazıda qeyd etmədik. Ümid edirik ki, bu sahəyə rəhbərlik edənlər nəhayət doğru-düzgün işləməyə başlayacaq və ölkəmizin kənd təsərrüfatının yüksək inkişafına nail olacaqlar.

***Elçin Bayramlı***

## Zəfər Gününü şərtləndirən amillər

# NƏLƏR İDİ?




### MÜNASİBƏT BİLDİRİLDİ

"Biz əslində, elə bir mühüm tarixin canlı şahidləriyik ki, bunun özü xoşbəxtlikdir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib.Elşad Məmmədli sözlərinə belə davam edib: "Təsəvvür edin, cəmi 3 il 2 ay öncə nəinki düşünə, təsəvvür edə bilmirdik ki, 2020-ci ilin noyabrında Şuşada, 2023-cü ilin oktyabrında Xankəndidə üçrəngli bayrağımız dalğalanacaq, suverenliyimiz tam bərpa olacaq, azı 100 illik problem kökündən həll ediləcək. Biz bu tarixin canlı izləyicisi olduq. Əlbəttə, bu Zəfəri, Qələbəni şərtləndirən nizamlı ardıcıllıq var. Cənab İlham Əliyev prezident seçildiyi gündən Qarabağ məsələsində birmənalı və qəti mövqe ortaya qoydu. Çox uzun danışmadan, aşağıdakı ardıcıllığı qeyd edə bilərik:

- Uğurlu xarici və daxili siyasət aparıldı;
- Ordumuzun qüdrəti maksimuma çatdırıldı;
- Vətənpərvərliyin yüksəldilməsi üçün daim çalışıldı;
- Daxili sabitlik möhkəmləndirildi;
- Ölkənin iqtisadi gücü artırıldı;
- Məsələnin danışıqlar yolu ilə həlli üçün Azərbaycan əlindən gələni etdi;
- Bütün dünyaya ən yüksək tribunalardan istifadə edərək, Azərbaycan həqiqətləri çatdırıldı;
- Dünyanın aparıcı gücləri ilə yüksək diplomatik bacarıqla iş aparıldı;
- Qardaş Türkiyənin dəstəyini hər an kürəyimizdə hiss etdik.

Bütün bu işlərin həyata keçirilməsi Prezident İlham Əliyevin siyasi ustalığı, əzmkarlığı, fədakarlığı sayəsində baş verdi. Nəticədə, bütün parametrlər üzrə işlər elə quruldu ki, 44 günlük müharibədə Zəfər çaldıq. Ondan sonrakı mərhələdə isə bu uğurlarımız davam etdi, separatçı rejimin məhvi, suverenliyimizin tam bərpası baş verdi. Əlbəttə, bu ali məqsədə gedin yolu cənab İlham Əliyev şəxsən özü müəyyən etdi, onun tam düzgün, ölçübiçili "Yol xəritəsi" ilə bugünkü şərəfli tarixi yaşadıq".

*Ayşən Vəli*

## "İran və Naxçıvan arasında bağlantı mühüm əhəmiyyət kəsb edir"

"Azərbaycan hökuməti ilə İran ötən ilin sentyabr ayında Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasının birləşdirilməsi üçün İran ərazisindən keçməklə infrastrukturun yaradılmasına dair müqavilə imzalayıb. Əldə olunmuş razılığa əsasən, 2022-ci il sentyabrın 22-də Zəngilan rayonu ərazisində hər iki ölkə rəsmilərinin iştirakı ilə avtomobil körpüsünün təməlqoyma mərasimi baş tutub. Bu layihə çərçivəsində oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb. Prezident İlham Əliyevin ötən gün imzaladığı "Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncama əsasən, tikinti işlərinə 14 milyon manat pul ayrılacaq və layihənin maliyyələşməsinin ilkin mərhələsi təmin olunacaq". Bu barədə SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov bildirib.








Millət vəkili bildirib ki, bu layihə Zəngəzur dəhlizinin bir hissəsi kimi mühüm əhəmiyyət kəsb edir və regiona ölkələri arasında əlaqələri daha da dərinləşdirən və regional əməkdaşlıq üçün yeni perspektivlər vəd edən önəmli bir kommunikasiya xətti hesab edilə bilər: "Zəngəzur dəhlizi yalnız Azərbaycan üçün deyil, bütövlükdə region ölkələrinə yeni iqtisadi imkanlar yarada bilər. "Bu dəhlizindən Azərbaycan və qardaş Türkiyə ilə bərabər, Rusiya, İran, Orta və Uzaq Asiya ölkələri istifadə edəcək, dəhlizin region üçün faydası daha çoxdur. Dəhliz imkan verir ki, bütün ölkələr öz mallarını bu dəhliz vasitəsi ilə Türkiyə vasitəsilə Orta Asiya və Avropaya nəql etsin. Eləcə də İran üçün bu dəhlizin Avropaya asan və daha qısa yolla çıxışına imkan yaranmış olur. Eləcə də, Qərb, Ərəb dövlətləri, o cümlədən Çin, Qazaxıstan, Özbəkistan, Türkmənistan və digər xarici ölkələr faydalana bilər".

A.Hüseynov qeyd edib ki, Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri Şərqi Zəngəzur dəhlizinin əhəmiyyətli kommunikasiya qovşağı olacağından xəbər verir: "Avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəriciləri ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcəyini xüsusi qeyd ediblər. Belə ki, 7 gediş-gəliş xətləri olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcək yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 təşkil edəcək".

*Ləman Sərraf*



# "Tik-tok" bayramı

**MƏTANƏT**

***Dünən qarşılaşdığım mənzərələrdən sonra bu qənaətə gəldim ki, şəhərimizin əksər sakini 31 oktyabrı Tik-tok bayramı kimi qeyd etdi. Müəyyən səbəblərdən bir neçə vaxt girişi məhdudlaşdırılan Tik-tok sosial şəbəkəsinin dünən günorta saatlarından sonra açıldığını bilən insanlar əməlli-başlı bayram sevinci yaşayır, bir-birilərini bu münasibətlə təbrik edirdilər.***

Düzdür, bu sevincin səbəbi mənə və mənimkimilərə xeyli gec məlum olsa da, necə deyərlər, bizə sonradan çatsa da, bu Tik-tok bayramının "sevincinə qatıla da bilməzdik. Çünki bizə görə Tik-tokdur da, həmişəki Tik-tok. İnsanların özlərini rüsvay etdiyi, biabırçılığın son həddi Tik-tok. Özümüz cəhənnəmə körpə, məsum övladlarımızı da oyunçusuna çevirdiyimiz Tik-tok. Bu körpələrə nələrisə öyrədib, əzbərlədib, sonra danışdıraraq videolarını çəkib yerləşdirməklə baxış yığmaq ovuna çıxdığımız Tik-tok. Uşağının psixologiyasına, inkişafına, gələcəyinə zərbə vuranların Tik-toku...

Nəyini bayram edəcəkdik Tik-tokun? Burada bəzi videoların qarşımıza çıxdığı anda utandığımızdan yerin yeddinci qatına girdiyimiz üçünmü? Yeməyi dəlicəsinəmi deyim, anormalcasınamı deyim, yeyərək özünü çəkən adı qadın olanları yenidən görəcəyimiz üçünmü?

Tik-tokdur da, nəyinə sevinir bu camaat, nəyini bayram edir, anlamaq bir qədər çətindir. Rəqsini çəkib burada paylaşanların, ağsaqqalını, ağbirçəyini söhbətə tutub gizlicə video çəkib əyləncə mövzusuna çevirən nəvələrin utancıdır da Tik-tok. Ailəsinə xəyanəti utanmadan göstərən, bununla qürur duyanların üz qarasıdır. Saatlarla canlı yayın açıb evinin işini-gücünü bir kənara buraxanların, canlı yayındaca gördüyümüz ayağı yalın, çılpaq-geyindirilməmiş uşaqların "anaları"nın söhbət yeridir. Saatlarla özü ağılda qadınlarla söhbətdə olan həmin qadınların uşaqlarının qarnının aclığından-toxluğundan kimin xəbəri var? Nə danışdığını, nəyi təlqin etdiyini özü də anlamayan, camaata paltar ütüləməyi öyrədən, guya yemək bişirməyi aşılayan, əslində isə canlı yayında gördüyümüz tökülü evlərin sahibi qadınların paxırını açan "güzgüdür" Tik-tok.

Əttökən məsələlərin müzakirə edildiyi, əttökən sualların verildiyi, bəzən canlı dalaşmaların, söz atmaların, sözü çəp gələnlərin ünvanıdır Tik-tok. Şuraltında olanları şüurüstünə çıxaran, mentaliteti ayaqlar altına salan, ayıbın nə olduğunu unutduran mexanizmdir Tik-tok...

Gəl, hələ bu Tik-tokun gəlişini bayram et. Yolda qarşına çıxanı təbrik et, zəng vur, mesaj yaz, bilməyənləri də xəbərdar et, digər sosial şəbəkələrdə elan yaz: ay camaat gözünüz-başınız aydın oldun, Tik-tok açıldı...

Hər kəsi xəbərdar et ki, toplaşsınlar yenidən Tiktoka. Başısoyuq valideynlər telefonu versinlər azyaşlı uşaqların əlinə. Özləri də otursunlar televizorun qarşısında, seriala dalsınlar, uşaq da Tik-tokda qarşısına çıxanların hamısına baxsın, keçsin...

Hər kəsi xəbərdar et ki, qoy hamı toplaşsın Tiktoka. Özünə hörmət hissini dənizə atıb, torpağa basdırıb burada qadın, kişi adına- ümumilikdə insana layiq olmayan videolarla, söhbətlərlə, mesajlarla gənclərimizin qarşısına çıxsınlar. Onların əxlaqına, tərbiyəsinə sitəm etsinlər. Camaatın gül kimi balalarını öz murdar hərəkətləri, davranışları, ədəbsizlikləri ilə məhv etsinlər.

Tik-tok açılıb, "gözümüz aydın olsun". Açılıb ki, bizdən yaxşıları alıb əvəzinə pisləri verməyə davam etsin. Açılıb ki, bizdən qopara-qopara getsin.

Nə qədər ki, bütün bunların fərqinə varmağa ya dərrakəmiz, ya vaxtımız, ya da ağlımız yoxdur, hələ çox Tik-tok bayramları keçirəcəyik. O zamanadək ki, bir də ayılacağıq ki, Tik-tok bizə qara bayram keçirir...

ARAŞDIRMA

# Klinikaların küvəz fırıldağı: qoyulmasa öləcək!

**Vaxtından əvvəl doğulan körpələr üçün nəzərdə tutulan küvəz XIX əsrin sonlarında ixtira olunub. Küvəz icad olunmamışdan əvvəl erkən dünyaya gələn yenidoğulmuşların həyati funksiyalarını tənzimləmək məqsədilə cücələr üçün nəzərdə tutulan, 1881-ci ildə Stephane Tarnier tərəfindən ixtira olunan inkubatorlara üstünlük verilirdi. Cücələrin yumurtadan çıxması üçün istilik, rütubət və havalandırma tarazlığını tənzimləyən bu cihazlarda vaxtından əvvəl doğulan körpələr üçün ana bətnindəki optimal şərait qorunmağa çalışılırdı. Hər 3 saatdan bir tibb bacısı tərəfindən dəyişdirilən isti su şüşələri ilə qızdırılan bu sistemdə birdən çox körpə müşahidə altında saxlanıla bilirdi.**

Yaranan ehtiyaclar və inkişaf edən texnologiya ilə ilk tibbi küvəz 1891-ci ildə Fransanın Nitsa şəhərində Alexandre Lion tərəfindən hazırlanır. Bu küvəzin havası iri metal gövdəyə qoşulmuş müstəqil ventilyatorun köməyi ilə daim təmizləndiyi halda, istilik balansı termostat tərəfindən təmin edilirdi. Vaxtından əvvəl doğulan körpəni ana bətnindəki mühitə uyğunlaşdırmaq məqsədi daşıyan küvəz uğurlu nəticələr verir.

Alexandre Lion küvəzlərin necə işlədiyinə dair ödənişli tədbirlər təşkil edir və qazandığı məbləği işlərində istifadə edir. Küvəzdə müalicə alan körpələrlə birgə çəkilən qrup şəkillərindəki sağlam körpələr ictimaiyyətin diqqətini çəkərək ianə toplamağa başlayır. A.Lion kəşfinin ilk üç ilində 185 vaxtından əvvəl doğulan körpədən 137-ni xilas etmiş və böyük uğura imza atır.











### Keysəriyyə küvəz üçün bəhanədir

Yaradan qadınlara anadangəlmə doğuş bacarığı verib, hər qadın dünyaya təbii yolla övlad gətirə bilmək qabiliyyətinə malikdir, bu bizim təbii strukturumuzda var. ”Bu qadın doğa bilmir” iddiası kökündən gülüncdür yəni. Qadınları keysəriyyə əməliyyatına yönəltmək üçün bir çox hallarda belə əsassız iddialarla çıxış edən həkimlər iddialarına tutarlı əsas da gətirə bilmirlər. Bəzi hallarda gözlərin zəifliyi, bəzi hallarda çanağın darlığı, bəzi hallarda ananın orqanizminin zəif olması kimi iddialar irəli sürülür.

Azərbaycanda vaxtından əvvəl keysəriyyə əməliyyatlarının böyük qismi özəl klinikalarda aparılır. Normal doğuş hamiləliyin 38-ci həftəsindən sonra baş tutan doğuşlar hesab edilir, keysəriyyə əməliyyatları isə çox zaman 38-39 həftədə yox, müxtəlif risklər nəzərə alınaraq 33-35-ci həftədə həyata keçirilir. Həkimlərin qorxusu uşağın doğuş kanalına düşməsidir ki, bu halda keysəriyyə etmək olmaz.

Keysəriyyə əməliyyatında həkimlərin israrının başqa bir səbəbi də işlədikləri klinikanın tələbi ilə süni küvəz ehtiyacı yaratmaqdır. Hamilə qadına müxtəlif səbəbləri bəhanə gətirərək, keysəriyyə təklif edən ginekoloq-cərrahlar uşağı bətndən 33-35 həftədə çıxararaq, küvəzə yerləşdirirlər. Maraqlısı odur ki, uşağın doğuşdan sonra küvəzə qoyulacağı barədə öncədən valideynlərə bir məlumat verilmir, çünki hamilə qadının başqa bir həkimə gedə biləcəyi ehtimalından çəkinirlər. Zorakı halda hamiləliyi sonlandıran bu həkimlər nəfəsalma funksiyası bərpa olunmamış yarımçıq körpələrin hesabına klinikanın bazarını çiçəkləndirirlər.

Dövrün ginekoloqlarının əksəriyyəti həm də cərrah kimi fəaliyyət göstərir, onlar hamiləliyi ilk həftələrindən etibarən təqib edir, hamiləlik boyunca dərman firmaları ilə əməkdaşlıq edir, gərəkdi-gərəkmədi dərman təyinatı verirlər. Hamiləliyin sonunda qadına qeyd etdiyimiz müxtəlif səbəblərdən birini bəhanə gətirərək, keysəriyyə təklif edən ginekoloq-cərrahlar uşağı ana bətnindən 3-4 həftə tez çıxararaq, küvəzə yerləşdirirlər.

### Küvəz üçün təyinatı necə uydurmalı?

Proses belə aparılır: Özəl klinikalarda işləyən, reklamlarla hamilə ovuna çıxan ginekoloq-cərrahlar əvvəlcə hamiləni nəzarətə götürür, 9-cu ayadək uydurulmuş analizlər və saxta xəstəlik diaqnozları ilə xeyli pulunu alır, doğuş vaxtı yetişəndə isə yeni diaqnoz qoyurlar: ”uşaqda ürək zəifləyir”, ”dölyanı maye azdır”, ”uşaq təbii doğuşa hazır deyil”, ”sən təbii doğuş edə bilməzsən, çanağın dardır”, ”keysəriyyə olmasa uşağın həyatı təhlükədədir” deyərək onsuz da tikan üstə olan ananı qorxudurlar. Ömrünün ən həssas dövründə olan hamilə qadın da övladını xilas etmək üçün o anda nə desələr razılaşır, axı söhbət balasından gedir.

Bu ginekoloqlar hətta bəzən lap irəli gedərək uşaqları ana bətnindən keysəriyyə yolu ilə 33-35 həftədə ayırırlar. Bu həftələrdə uşaq yarımçıq doğulmuş sayılır. Anaya, ataya -bütün ailəyə öncədən bu barədə məlumat vermirlər, çünki alternativ həkim və klinika təhlükəsi var. Neonatal şöbəyə ehtiyac olmayacaqmış kimi davranırlar, hətta hamilə qadına uşağın ana bətnində ciyərlərinin açılmasını təmin edən bahalı iynə də vururlar. Ailə həkimə inanır, güvənir. Elə bu inam və güvən də onların ən böyük səhvi olur.

Bura qədər oxuduqlarınız hələ jurnaldır. Kino bundan sonra başlayır. Uşaq doğulandan sonra bütün insani hisslərini pula dəyişmiş o ginekoloq-cərrahlar deyirlər ki, körpənin həyati təhlükəsi var və yaşasın deyə küvəzə qoyulmalıdır. 9 ay soğan kimi soyulmuş valideyn nə edə bilər? Övladı üçün əlbəttə ən son qəpiyinə kimi xərcləməyi gözə alır. Axı bu körpəyə görə 9 ay almadığı dərman, vermədiyi analiz qalmayıb bu qadının, indi bir küvəzə görə bu boyda əziyyət heç olsun? Razılaşırlar və körpə gedir neanotologiyaya, küvəzin içinə. Burada klinikanın sayğacı da işə düşür, hər gün üçün ən az 300 manatdan hesablayın, ən az 1 ay küvəz macərası bu ailəyə neçə min manata başa gəlir sizcə? 9-10 min manata!

Bu pulu ödəmək qabiliyyəti, imkanı olan neçə ailə var ölkədə? Əlacı kəsilən valideynlər maşını, qızılı satır, ev sata bilmir, çünki kirayədə yaşayır. Belə olan halda yada xalq düşür, bir bank kartı, yalvarış dolu bir mətn, gözü yaşlı ana və küvəzdəki yarımcan körpənin fotoları. Bizim insanlar mərhəmətlidir, rəhmlidir, bu günədək belə vəziyyətlərdə hamının yardımına qaçıb insanlar. Əllərindən gələni edirlər, mərhəmətli insanların son qəpikləri klinikanın kassasını doldurduqca körpənin küvəzdə qalma şansı da artır. Əks halda körpə yaşama şansını itirəcək. Çünki ən az 2000 depozit qoyulmayan, hər gün üçün minimum 300 manat ödənilməyən vəziyyətdə o küvəz o uşağa dar ediləcək.

### Pulun yoxdursa, marş!

Xatırlayıram, bir neçə il öncə Respublika Perinatal Mərkəzin direktoru, həkim ginekoloq Sevinc Məmmədovanın bir müsahibəsini oxumuşdum mətbuatda, dediyi bir söz iliklərimə qədər işləmişdi: ”O qədər qışın soyuğunda, gecəyarı, qucağında nəfəsi kəsilmiş, göyərmiş körpəsini gətirən analar olur ki. Ya Pediatriya İnstitutuna, ya da Perinatal Mərkəzə gəlirlər. Özəl klinika daşınmaq üçün heç xüsusi təcili yardım maşını da vermir. O da pulludur - 300 manat. Pul yoxdursa, uşağı verir valideynin qucağına. İş orasındadır ki, vətəndaşlar dövlət xəstəxanasında belə bir münasibət olsa, həkimi az qala öldürərlər. Amma özəldə baş verəndə şikayət də etmirlər. Çünki pulun yoxdursa, sənə xidmət yoxdur, bununla da barışırlar. Amma belə olmaz. Körpəni aparatdan ayırıb, sterillik pozularaq, taksi ilə göndərmək olmaz”.

Bir neçə klinika ilə küvəz qiymətlərini dəqiqləşdirdim. Leyla Medical Centerdə 1 bir gün üçün küvəz qiyməti 180 azn təşkil edir və 1000-2000 AZN aralığında depozit qoyulmalıdır. Bu qiymətə ehtiyac yaranacaq dərmanların qiyməti daxil deyil, onun üçün əlavə pul tələb olunacaq. Oksigen Klinikada küvəz qiyməti 1 gün üçün ən az 500 manat hesablanır.

İnternational Medical Centerdə küvəz ehtimalı olan körpə üçün ilkin 1500 manat depozit tələb olunur. Uşağın doğulma (zorla doğuzdurulma) prosesindən sonra neçənci həftədə olması küvəz qiymətlərinə təsir edir. Klinika israrla günlük ödənişi demədi, lakin analizlərimizə görə bu qiymət günlük 500 manatdan az deyil.

Vital Klinikada depozit olaraq 1000 manat tələb edilir, öncə küvəzin bir günü 50 və 80 manat aralığında deyirlər, lakin edilən hər avadanlıq və dəman müdaxiləsi üçün məbləğ yüksəlir. Belə ki, bu klinikada küvəzdə uşaq saxlamaq üçün günlük minimum 350 manat təlib edildiyi deyildi.

### Küvəzə düşməmək üçün nə etməli?

Bəzən vaxtında - 39-40 həftədə doğum edən anaları da qorxudurlar, ”körpənin çəkisi azdır, zəifdir, küvəzə ehtiyacı var” deyə. Küvəzə girmək heç bir halda uşağın çəkisi ilə bağlı deyil. Bu hamiləlik həftəsi ilə əlaqəli bir vəziyyətdir. Başqa sözlə, daha az həftədə doğulan bir körpənin küvəzəgirmə ehtimalı daha böyük bir hamiləlik həftəsində doğulan və çəkisi az olan bir körpə ilə müqayisədə daha yüksəkdir. Misal üçün, 34 həftəliyində 2.800 çəki ilə doğulan körpənin küvəzə qoyulma ehtimalı daha çoxdur, nəinki 38-39 həftəliyində 2.400 və ya 2. 500 ilə doğulan körpə.

Özəl klinikaların küvəz fırıldağına düşməmək üçün əsas məsuliyyət valideynlərin üzərinə düşür. Hamiləliyin gedişatı zamanı sizə təyin edilən hər dərman üçün araşdırma edin, hər analiz üçün əsas tələb edin. Klinikanın kassası dolacaq deyə sizi hər ay əsaslı analizə göndərən, dəxlisiz dərmanlar yazan həkimlərdən uzaq durun. Hamilə qadın xəstə deyil, sadəcə hamilədir və bu tamamilə normal fizioloji prosesdir. Sizə xəstə kimi yanaşan həkim faydalı ola bilməz. Keysəriyyə ən son anda ana və körpənin həyatını qurtarmaq üçün icra edilən əməliyyat növüdür, bu bir seçim deyil, könüllülük əsasında həyata keçirilmir. Bəzi klinikalar, vicdanını itirmiş bəzi həkimlər sizin sağlamlığınız, övladınızın can təhlükəsi bahasına sizi bu yola sürükləyə bilər, amma etiraz etmək, həkim dəyişmək seçiminiz də var və bu seçim həm övladınızı küvəzdən qoruyacaq, həm də ailə büdcənizə qarşı edilən hücumun qarşısını alacaq.

Unutmayın, vicdanlı həkimlər, xəstə sağlamlığını biznes maraqlarından üstün tutan xəstəxanalar da var və onları araşdırıb tapmaq sizin öhdənizə düşür. Erkən doğuşa məcbur edilənlərdən, zorla keysər edilən analardan olmamaq üçün bir az gözüaçıq və məlumatlı olmaq kifayətdir.

***Lalə Mehralı***

# Əli Kərimli indi də qazilərimizə şər atır

Hər bir vətəndaşın müqəddəs borcu dövlətin inkişafına bu və digər formada töfhə verməsi olmalıdır. Yəni, vətəndaş üzərinə düşən vəzifələri dərk edib, öz vətəndaşlıq borcunu yerinə yetirməyə çalışmalıdır. Əminliklə demək olar ki, hər bir kəs vətəndaşlıq borcunu yerinə yetirsə cəmiyyətimizdə köklü problem qalmaz. Təəssüflər olsun ki, bəzi hallarda vətəndaşlarımız öz vəzifə borclarını ya bilmir, ya da bilmək istəmirlər. Yalnız dövlətdən tələb edirlər. Çox vaxtı dövlət qarşısında tələb qoyurlar ki, "bunu ver", "onu et", "onu istəyirəm" və digər istək və tələblər. Ancaq bir dəfə də olsun, özlərinə sual etmirlər ki, biz dövlət qarşısında hansı vəzifələri icra etmişik? Dövlət üçün hansı mərifətli işlər görmüşük və ya xalqımıza nə kimi xeyrimiz dəyib? 44 günlük Vətən Müharibəsi dövründə AXCP sədri Əli Kərimli, Milli Şuranın üzvü Cəmil Həsənli, Real partiyasının sədri İlqar Məmmədov, Milli Şura üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri bir dəfə də olsun vətəndaş mövqeyini ortaya qoyub, dövlətin yanında olduqlarını bəyan etmədilər. Bütün siyasi partiyalar, ictimai təşkilatlar beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin parlamentlərinə Ermənistanın dinc əhalini, mülki obyektləri hədəfə almasına etiraz bildirən müraciətlər ünvanlayanda AXCP sədri Əli Kərimli, Milli Şuranın üzvü Cəmil Həsənli, Real partiyasının sədri İlqar Məmmədov, Milli Şura üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri düşmən dəyirmanına su tökən açıqlamalarla çıxış edir, addımlar atırdılar. Beləlləri vətəndaşdan çox, satqın və xəyanətkarlardır. Təəssüf ki, hələ ki, onlar öz adları ilə çağırılmırlar. Özləri də günahlarını, səhvlərini dilə gətirib, cəmiyyətdən üzr istəmirlər.



Əksinə, anormal əməllərini daha geniş və həyasız formada davam etdirirlər.

### Əli Kərimli qazilərimiz haqqında həqiqətdən uzaq olan fikirlər yayır

AXCP sədri Ə.Kərimli demək olar ki, hər gün təxribat maşını hesab olunan saytlarına verdiyi açıqlamalarında milli maraqlarımıza yönələn böhtanlar səsləndirir. Son vaxtlar isə, Qarabağ zəfərinə şər atmaqla siyasi divident qazana bilmədiyini anlayan Ə.Kərimli qazilərimizlə bağlı həqiqətdən uzaq olan statuslar paylaşmaqla ən azı mətbuatın diqqətini özünə cəlb etməyə çalışır. Halbuki, qazilərimizin maddi, sosial problemləri yoxdur. Ə.Kərimli isə cəmiyyətimizin həssas nöqtəsinə hücum təşkil etməklə ictimai rəydə qismən də olsa çaşqınlıq yaratmağa çalışır: "2-ci Qarabağ savaşından sonra xalqımız ümidlənmişdi ki, ölkədə çox şey dəyişəcək. Ən azı 1-ci Qarabağ savaşı şəhidlərinə və qazilərinə edilmiş biganəlik bu savaşın qəhrəmanlarına münasibətdə təkrarlanmayacaq. Ancaq tam əksi ilə qarşılaşdıq. Ötən 3 ildə saysız-hesabsız Qarabağ qazisi biganəliyə, diqqətsizliyə üsyan etdi, intihar etdi, özünü yandırdı. Ancaq hakimiyyət qazilərə saymazyana münasibətini dəyişmədi". Söz yox ki, Ə.Kərimlinin pozucu xarakterli fikirlərinə geniş yer verməmək olardı, təbii ki, əgər müharibə qəhrəmanları haqqında əxlaqdan kənar fikirlər səsləndirməsə idi. Bu məxluq hələ də anlamır ki, Azərbaycan dövlətinin diqqət çəkdiyi başlıca təbəqələrdən biri şəhid ailələridirsə, digəri qazilərimizdir. Dövlətimiz tərəfindən şəhid ailələrinə və qazilərimizə sosial ödənişlər, məişət problemlərinin həlli davamlı və ardıcıl xarakter daşıyır. 44 günlük parlaq qələbədən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlar üçün mənzillə təminatı geniş xarakter alıb. Şəhid ailələrinə və qazilərə 2020-ci ildə 1 500 mənzil, 2021-ci ildə 3 000 mənzil, 2023-cü ilin 9 ayı ərzində 1 500 mənzil verilib. Qazilərin müayinə və müalicəsi həyata keçirilib. Əzalarını itirmiş qazilərimiz Ali Baş Komandan, Prezident İlham Əliyevin göstərişi əsasında yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunublar.

### Əli Kərimlinin qazilərdən öz maraqları üçün istifadə etməyə çalışması qaysaq bağlayan yaranı bilərəkdən qanatmaqdan başqa bir şey deyil

Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə İlham Əliyevin imzaladığı Sərəncama əsasən şəhid ailələrinin təqaüdü 500 manata, 1-ci qrup müharibə əlillərinin təqaüdü 400 manata, 2-ci qrup müharibə əlillərinin təqaüdü 350 manata, 3-cü qrup əlillərin təqaüdü isə 300 manata qədər artırılıb. Azərbaycanın Milli Qəhrəmanlarının təqaüdləri 1800 manata çatdırılıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı"nı təqaüdü təsis olunub. Yeni təqaüdün məbləği 2000 manat həcmində müəyyənləşdirilib. 2022-ci il də 400 müharibə əlilinə avtomobillər təqdim olunub. Eyni zamanda, məşğulluq mərkəzləri tərəfindən 1000 nəfər işlə təmin edilib, 12 min ailə isə özünüməşğulluğa cəlb olunub. Söz yox ki, dövlətimiz bu kateqoriyada olan ailələrə dəstəyini davam etdirəcək. AXCP sədri Əli Kərimli, Milli Şuranın üzvü Cəmil Həsənli, Real partiyasının sədri İlqar Məmmədov, Milli Şura üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri bu reallığı bilmirlərsə və faktlardan xəbərsizdirlərsə, deməli, düşüncələrində problemlər var. Xüsusilə də, Ə.Kərimlinin söylədiyi böhtanlar özünün müstəqil mövqeyi olmadığı qənaəti yaradır. Çünki bu günə qədər o fəaliyyətini fərqli qüvvələrin və mərkəzlərin sifarişləri əsasında qurub. Lakin indiki halda qazilərdən öz maraqları üçün istifadə etməyə çalışması qaysaq bağlayan yaranı bilərəkdən qanatmaqdan başqa bir şey deyil. Belə məxluqlar ən ağır cəzaya və ittihama layiqdirlər. Əminliklə demək olar ki, gec-tez xalqın heysiyyatı ilə oynayan, milli maraqlara qarşı düşmənçilik siyasəti aparan Ə.Kərimli kimilər layiq olduqları cəzanı alacaqlar.

***İ.ƏLİYEV***

# "Yaxşı olar ki, moda evlərini bu sahə üzrə savadı olanlar açsın"

*STİL MƏSLƏHƏTÇİSİ AÇIQLADI*

Məlumdur ki, son zamanlar blogerlərin əksəriyyəti özlərinə geyim atelyeləri açır. Bəs, heç bir moda təhsili olmayan birilərinin bu addımı atması nə dərəcədə doğrudur? Hər bloger olan moda evi, yaxud atelye aça bilərmi? SİA mövzu ilə bağlı stil məsləhətçisi, geyim psixoloqu Rena Əliyevanın fikirlərini öyrənib. Onun sözlərinə görə, bu mövzu bir çox insanı narahat edir: "Bu tendensiya əvvəldən belə olub. Belə ki, maddi vəziyyəti yüksək olan bəylər xanımları, yaxud sevgililəri üçün moda evləri açırdılar. Bu işdə ömrü boyu savadlı insanlar az olub. Savadlı olanlar da önə gedərək öz markasını qlobala çıxarır. Azərbaycanın bir çox markasının qlobala çıxmamağının səbəbi də elə sırf bu savadsızlıqdır. Çünki heç kəs özü işi ilə məşğul ola bilmir. Savadı olanda pul, pulu olanda da savad yoxdur".

Rena Əliyeva sözlərinə belə davam edib: "Mən başa düşürəm ki, blogerlər yaxşı qazanır və qazanıqlarını da bir işə həsr etmək istəyirlər. Amma təəssüf ki, onların hamısı asan yola qaçır və eynilik etməyə çalışır. Axı, onlar niyə oturub biznes plan çıxarmır, ölkədəki boşluqlara baxmırlar? Məsələn, Azərbaycanda əyləncə sektoru çox zəifdir. Bu sahəni inkişaf etdirmək olar. Azyaşlı uşaqlar üçün məkanlar çox azdır. Uşaqların intellektini artıracaq məktəb tərzində yerlər aça bilərlər. Yaxud geyim yox, parça sata bilərlər. Çünki bizdə parça sferası da çox zəifdir. Hamı elə geyimə yönəlir. Bu sonu olan birşeydir. Bir çox bloger artıq bu işdən çəkilir. Çünki insanlar ad-sana görə bir-iki dəfə gəlir və sonda hər kəs keyfiyyət axtarır. Bloger olmayıb bu işi kifayət qədər yaxşı görən xanım və bəylərimiz var ki, müştərilər onlara yönəlir. İnternetdən hazır model tapıb onun eynisini tikdirməklə moda evi işlətmək olmur. Yaradıcılıq və düşünən beyin yoxdursa, o yer çox da işləmir. Bəzilərinin bu işə çox həvəsi var. Amma ən azından qazandığınız puldan bu sahədə inkişaf etmək üçün özünüzə ayırın. Heç olmasa iki onlayn dərs alıb özünüzü təkmilləşdirin. Ən narahatedici məqam da elə budur.



Azərbaycanda ümumi cəmiyyətin ən böyük problemi odur ki, hər kəs hər şeyi bildiyini düşünür. Bu səbəbdən də özünün üzərində işləməyə, təhsilə pul qoymağa ehtiyac görmür. Yaxşı olar ki, moda evlərini bu sahə üzrə savadı olanlar açsın. Yalnız bu yolla yaxşı inkişaf mümkündür. Hətta mən özüm bu sahənin içində ola-ola moda evi açmağı düşünmürəm. Çünki dizayner, yaxud dərzi deyiləm. Mən bədənləri və parçaları yaxşı tanıyıram. Bu sahədə gördüyüm başqa boşluqlar var və ona yönəlirəm".

***A. Vəli***

# Vaqif Xaçatryanın cinayət işi üzrə növbəti məhkəmə baxışı keçirilib

**Dünən Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə ittiham olunanlardan biri - Vaqif Xaçatryanın cinayət işi üzrə növbəti məhkəmə baxışı keçirilib. SİA-nın məlumatına görə, V.Xaçatryan Azərbaycan tərəfindən vəkil və tərcüməçi ilə təmin olunub, ona qanunvericiliyin tələbləri izah olunub. Bakı Hərbi Məhkəməsinin sədr əvəzi, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda zərərçəkmiş şəxslər dindirilib.**



Zərərçəkmiş Rəhimov Salman Oqtay oğlu: "Bu şəxsi mən şəxsən tanımıram. Amma hadisələrdə iştirak etdiyimə görə bilirəm. Bacım orada ərdə olub. Mən də o kəndə getmiş və cinayətləri görmüşəm. Meşəli kəndində olarkən hadisə baş verdi. Gecə yatdığımız yerdə ermənilər hücum ediblər. Evdə yatdığım yerdə ayağımdan güllə yarası aldım. Bacım da eyni şəkildə yaralanıb. Ondan sonra ermənilərin mikrofonla camaata "Sizi qıracağıq", "Kənddən çıxın" və "Təslim olun" sözlərinin şahidi olmuşam. Onlar kəndə hücum edib camaatı qırıb yandırıb. Bunlara gözümlə şahid olmuşam.

Bütün kənd camaatı hamı Vaqifi tanıyır. Deyirlər ki, o işin başçısı Vaqif olub və təşkilatçılıq edib. Mənim dayılarım, nənəm, babam Meşəlidə ölüb. Ermənilər bilir ki, mənim babam kəndi qoruyub saxlayan kişilərdən biri olub. Vaqif babamı çox yaxşı tanıyır. Qıçımdan və çiynimdən yara almışam. Güllə çiynimdən dəyib kürəyimdən çıxıb. Nənəm də başından güllə yarasından ölüb. Nənəmin beyin hissəsi dəfn olunduqda yox idi. Ermənilər hücumda əsas avtomat, pulemyotdan istifadə edirdilər. Bütün kəndi üzük qaşı kimi mühasirəyə almışdılar. Mən məhkəmədən iki güllə yarası almış şəxs kimi xahiş edirəm ki, bu adama ömürlük həbs cəzası verilsin".

Zərərçəkmiş Elşən İbadullayev: "Vaqifi şəxsən tanımıram. Mən o vaxt uşaq idim. Kəndin bütün böyüklərinə Vaqif və onun ətrafı zülm verib. Güllənin səsinə oyandıq. Ayıldıq ki, el-aləm alışıb yanır. Mikrofonla "Təslim olun" deyirdilər. Təslim olduq da, bəs bizi niyə öldürdünüz?. Vaqif, indi burada heçnəyi boynuna almırsan, amma o vaxt orada at oynadırdın. Kəsdiyiniz çörək sizi tutsun. Vaqifə ömürlük həbs verilsin. O bizi evimizdən-eşiyimizdən sürgün etdi".

Zərərçəkmiş Niyazi İbadullayev: "Mən Meşəlinin sakiniyəm. Amma hadisə vaxtı orada olmamışam. Qardaşım, dayım, bibim və xalamoğlu şəhid olub. Yaralıları qardaşım aparıb. O biri ailə üzvlərimi də xalamoğlu aparırdı. Ermənilər maşının önünü kəsib hamısını öldürüblər. Orada bir çox ermənilərin adı çəkilib. 30 il bundan öncə olan hadisədir. Yadımda az ad qalıb. Amma Vaqifin adını yaxşı xatırlayıram".

Zərərçəkmiş Əli Behbudov: "Bizim kəndin hər cığırını Vaqif yaxşı tanıyır. Çünki biz qonşu kəndlərdə idik və gediş-gəliş var idi. Münasibətlərimiz də pis deyildi. Onlar quşdan tutmuş canlı gəzən pişiyə kimi hamısını güllələyirdilər. Bibim oğlanları, bibimin yoldaşı, öldürüldü. Bir ailədən 4-5 nəfər öldürülürdü. Qaynatamı evimin altında öldürdülər".

Zərərçəkmiş Nadir Əkbərov: "Bizim kəndin birinci qatili sənsən, Vaqif. Sən mənim ata-anamı öldürmüsən. Mən səni çox yaxşı tanıyıram.

Mikrofonla deyirdilər ki, "Kəndi tərk edin, sizi qırmayacağıq". Bunlar belə deyəndə əliyalın millət evdən çıxdı. Bütün çıxanları qırdılar. Vaqif bütün proseslərdə iştirak edib. O yalan danışır". Vaqif Xaçatryan isə şahidlərə cavab olaraq bildirib ki, zərərçəkmişlərin heçbirini tanımır: "Mən bu zərərçəkmişlərin heç birini tanımıram. Ay qardaşlar, mən orada olmamışam. Vaqif orada olmayıb. Ola da bilməz. Mən orada heç kimə və heçnəyə başçılıq etməmişəm. Bizim evə başçı mənim anam olub. Mən günahsız adamam və burada dayanmışam".

Qeyd edək ki, Xaçatryan Vaqif Çerkezoviç 1992-ci ildə Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı soyqırımı törətməkdə, əhalini deportasiya etməkdə və digər xüsusilə ağır cinayətlərdə ittiham olunur. İttihamda deyilir ki, onun üzv olduğu dəstənin əməlləri nəticəsində 25 nəfər azərbaycanlı öldürülüb, 14 nəfər xəsarət alıb. Bundan başqa hadisələr vaxtı dövlətə və kənd sakinlərinə məxsus 5 milyon 496 min 900 manatlıq əmlak məhv edilib. Bakı Hərbi Məhkəməsinin sədr əvəzi, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda növbəti məhkəmə baxışı 6 noyabr saat 10:00 üçün müəyyən olunub".

***Ayşən***

# Sergey Markov: ”Bakı artıq Qərbin və İrəvanın oyunlarına dözmək fikrində deyil”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

"Bu ay Aİ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında 2 görüşün keçirilməli olduğu və hər ikisinin baş tutmaması, Bakının artıq Avropa İttifaqı ilə vasitəçi kimi məşğul olmaq istəmədiyini deməyə əsas verir"









Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov ”Moskva-Baku” portalına müsahibəsində Ermənistan-Azərbaycan münasibətlərindəki son tendensiyaları şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sergey Aleksandroviç, Qərb dövlətləri Ermənistana konkret artan maraq göstərir - bu yaxınlarda İrəvan və Paris hərbi əməkdaşlıq, o cümlədən silahların tədarükü və hərbi kadrların hazırlanması haqqında saziş imzalayıblar. Kanada da bu yaxınlarda Ermənistanda səfirliyini açıb və Aİ-nin Ermənistan-Azərbaycan sərhədində monitorinq missiyasına qoşulmaq niyyətini xatırladıb. Bunun fonunda bir ayda ikinci dəfədir ki, Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin görüşü ləğv edildi... Sizcə, bütün bu proseslər nəyi göstərir?***

- Ermənistan sürətlə Qərblə yaxınlaşır. Qərbə sadiq olmağın formalarından biri də Rusiyanın düşmənlərini dəstəkləməkdir. Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bu yaxınlarda Maltada Dövlət Departamentinin nümayəndələri və Fransa prezidenti ilə görüşüb. Ermənistan hakimiyyəti indi mütəmadi olaraq Qərbin nümayəndələri ilə- həm milli səviyyədə, həm də Avropa strukturları səviyyəsində- görüşür. Onlar Rusiya ilə ümumi mübarizənin fonunda kömək axtarır, əməkdaşlıq axtarırlar. Və təbii ki, Qərbdən vaxtaşırı anti-Azərbaycan hücumları üçün zəmin hazırlayırlar.

Bəli, bu gün Qərbin Ermənistana marağı yüksəkdir. Avropanın müxtəlif funksionerləri bir-birinin ardınca respublikaya səfər edirlər. Qərb məmurlarının sonsuz silsiləsi. Yüksək diplomatik fəallıq var. Sadəcə olaraq Qərbə Ermənistanı Rusiyadan qoparmaq lazımdır ki, Moskvaya qarşı düşmənçilik etsin. Belə ki, Ermənistan vasitəsilə sanksiyalardan yan keçmək mümkün olmasın və respublika KTMT və Aİİ-də ”təxribat” işi ilə məşğul olsun. Ona görə də Qərb Ermənistanda müxtəlif ”məlumat toplama” missiyaları yerləşdirir, səfirliklər, konsulluqlar açır, onun vasitəsilə Rusiya, Azərbaycan, İran və Türkiyəni izləmək üçün Ermənistanı öz nəzarətinə götürür.

Məsələ ondan ibarətdir ki, Qərb Ermənistana kömək etməyəcək. Lazım olanı götürüb atacaq. Ermənistan Qərbdən uzaqda yerləşən kiçik, kasıb respublikadır. Onun Azərbaycan kimi nefti yoxdur, Azərbaycan və Gürcüstan kimi dənizə çıxışı yoxdur. Bəli, Qərb Ermənistanda öz yerini tutmağa çalışır, o cümlədən təhlükəsizlik baxımından. Amma hamısı budur. Qərb ”tərəfdaşları” İrəvana səslənir: ”Rusiyanı tərk edin, onunla münasibətləri kəsin, biz sizə kömək edəcəyik!” Amma kömək etməyəcəklər.

Bu ay Aİ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında iki dəfə görüşün keçirilməli olduğu və hər ikisinin baş tutmaması, Bakının artıq Avropa İttifaqı ilə vasitəçi kimi məşğul olmaq istəmədiyini deməyə əsas verir. Qarabağ məsələsinin yekun həllindən sonra Azərbaycanın vasitəçilikdə vicdansızlıq edənlərə açıq şəkildə etiraz nümayiş etdirmək imkanı var idi ki, onu da edir. Avropa İttifaqı həm struktur olaraq, həm də ona daxil olan ölkələr səviyyəsində onu ört-basdır etmək və oynamaq cəhdlərinə baxmayaraq, kifayət qədər müntəzəm olaraq Azərbaycana qarşı bir növ qınaq nümayiş etdirir. Bakı artıq buna dözmək fikrində deyil.

***- Oktyabrın 26-da Gürcüstan hökuməti başçısının vasitəçiliyi ilə Gürcüstanda Azərbaycan və Ermənistan baş nazirləri arasında üçtərəfli danışıqlar baş tutub. Onlar Cənubi Qafqazda uzunmüddətli və sabit sülhün bərqərar olması və Tbilisinin vasitəçi kimi çıxış etməyə hazır olduğunu müzakirə ediblər. Bu formatın perspektivlərini necə şərh edə bilərsiniz?***

- Gürcüstan da Ermənistan kimi kiçik, problemlərlə yüklənmiş və beynəlxalq münasibətlərdə o qədər də subyektiv olmayan, tam mənada suverenliyə malik olmayan bir dövlətdir.

Amma Azərbaycan Transqafqazda əməkdaşlığı stimullaşdıran lokomotivdir. Bu, Gürcüstan və Ermənistanda olduğu kimi, Cənubi Qafqazın ən konsolidasiya edilmiş ölkəsidir ki, orada ciddi daxili iflic mübarizəsi yoxdur. Azərbaycan bütün istiqamətlərdə- iqtisadi, diplomatik, hərbi baxımdan Transqafqaz qonşularından güclüdür. Bu suveren dövlətdir. Azərbaycan isə üç Zaqafqaziya dövləti arasında təbii liderdir.

İlham Əliyev vaxtaşırı Zaqafqaziya dövlətlərinin üçtərəfli formatı çərçivəsində qarşılıqlı fəaliyyətin zəruriliyindən danışır. İkinci Qarabağ müharibəsindən sonra o, Gürcüstanın baş naziri ilə Zaqafqaziyanın gələcək inkişafına həsr olunmuş müxtəlif platformalarda dəfələrlə görüşüb və hər dəfə Ermənistanı belə üçtərəfli formatda iştirak etməyə çağırıb. Deyə bilərik ki, bu yaxınlarda Tiflisdə keçirilən İpək Yolu sammiti çərçivəsində bu format başladı.

Ola bilsin ki, bu yaxınlarda İlham Əliyev müəyyən dərəcədə hörmət əlaməti olaraq Tiflisin Bakı ilə İrəvan arasında vasitəçilik edə biləcəyini bəyan edib. Axı Gürcüstan hakimiyyəti son illərdə dəfələrlə bu istiqamətdə mövqe nümayiş etdirib. Və vasitəçilik hətta təsirli oldu. Axı Gürcüstanın vasitəçiliyi ilə, məsələn, Ermənistan mina sahələrinin xəritələrini Azərbaycana, Azərbaycan isə hərbi əsirləri Ermənistana təhvil verib. Düzdür, bunu Gürcüstan Aİ və ABŞ-ın vasitəçiliyi ilə edib.

Ola bilər ki, Gürcüstan da hansısa kiçik rol oynaya bilər. Ermənistanı razı salmaq üçün Azərbaycana daha çox şey lazımdır. Azərbaycanın şərtlərini tam qəbul etsinlər və normal əməkdaşlıq edilsin. Buna görə də, xorda çox insan ola bilməz, nə qədər inandırıcı olsa, bir o qədər yaxşıdır. Eyni zamanda, hesab edirəm ki, obyektiv olaraq ilk növbədə İlham Əliyevin irəli sürdüyü regional format- - Azərbaycan, Ermənistan, Gürcüstan - realist və hər şeydən əvvəl iqtisadi baxımdan səmərəli ola bilər. Nəqliyyat, ticarət, enerji sahəsində qarşılıqlı əlaqə baxımından. Ümumiyyətlə, Azərbaycan, Gürcüstan və Ermənistan liderlərinin birgə çıxış etdiyi bütün məkanlarda format belə yerləşdirilib.

Hətta Zaqafqaziya dövlətlərinin iqtisadi birliyini yaratmaq da mümkündür. Və bu format effektiv ola bilər. Ancaq bu, konstruktiv qarşılıqlı əlaqə tələb edir.

***- Bu günlərdə Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov bildirib ki, Bakı ilə İrəvan arasında sülh sazişinin əksər bəndləri razılaşdırılıb. Həmin gün Ermənistanın baş naziri Nikol Paşinyan sənədin üç bəndinin razılaşdırıldığını bəyan edib. Sizcə, ilin sonuna qədər imzalanma perspektivləri nədən ibarətdir?***

- Hələ 100% deyil, çünki Paşinyan Qarabağın ”təslim olmasından” sonra Azərbaycanın şərtləri ilə bağlanan sülh müqaviləsinin Ermənistanın mövqelərinin növbəti təslim olması kimi qəbul ediləcəyindən və bunun üçün sadəcə devrilə biləcəyindən qorxur. İnanıram ki, bu vərdişinə görə müqavimətini davam etdirəcək.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
2 noyabr
2023-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Ev xanımının işini kiçiltmək düzgün deyil”

*MÜNASİBƏT BİLDİRİLDİ*





“Müasir dövrdə çalışan qadınların sayı gündən-günə artır. Bu da müxtəlif səbəblərlə bağlıdır. Qadınların bir qismi cəmiyyətə inteqrasiya olmaq, karyera qurmaq, öz maddi problemlərini həll etmək və digər səbəblərlə bağlı çalışmaq istəyirlər. Bəzi qadınlar isə əksinə, çalışmaq istəmir, vaxtını yalnız ailəsinə sərf etməyə üstünlük verirlər. Bu baxımdan, evdar qadınlar çalışanların, çalışan qadınlar isə evdar qadınların daha çox xoşbəxt olduğunu düşünürlər”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Dövlət Pedaqoji Universitetin müəllimi, psixoloq, pedaqoq Günel Allahverdiyeva deyib.

Günel Allahverdiyeva sözlərinə belə davam edib: ”İngiltərədə aparılan bir araşdırmaya görə, evdar qadınlar çalışan qadınlara nisbətən daha xoşbəxtdirlər. Araşdırma göstərir ki, evdar qadınlar evdə vaxt keçirərkən daha az sıxılır və özlərini daha dəyərli hiss edirlər. Qadınlar evdə uşaqları ilə vaxt keçirərkən özlərini daha xoşbəxt hiss edir və işə dönmək istəmirlər. Xoşbəxtlik insanın həyat amalından asılıdır. Əgər insanın niyyəti cəmiyyət həyatına qatılıb bir işlə məşğul olmaqdısa, o öz həyatından şikayət etmir. Yox əgər qadın, sadəcə, qismətilə barışıb özünü evdar qadın kimi görürsə, o öz xoşbəxtliyini məhz evdə, daim ailəsinin, övladlarının yanında tapacaq.

Hər bir qadın özünü öz evində xoşbəxt hiss edəcək bir rola sahib olmalıdır. Yox əgər qadın işləmək məcburiyyətindədirsə, onda o öz həyat yoldaşı ilə evdəki rolunu paylaşmalı və hər bir işləyən qadın övladlarının yaxşılığını düşünərək ona uyğun hərəkət etməyi bacarmalıdır. Amma onu da qeyd edək ki, ”Yaxşı” uşaq yetişdirmək yaxşı iş qadını olmaqdan daha çətindir. Çünki ev xanımının gördüyü işin nəticəsi tez bir zamanda görünmür. Lakin iş qadınının maaşı, kariyera kimi bir çox nəticələri gözə daha tez çarpır. Unutmayaq ki, ev xanımlığının qiyməti illər sonra yetişdirilən yaxşı övladlarla ortaya çıxır. Ev xanımını kiçiltmək, aşağı səviyyədə görmək heç də düzgün deyil. Qadınların bu roluna qiymət, dəyər verilmədikdə qadın bu roldan uzaqlaşa bilər. Bəzən isə qadının işləyib, müstəqil olaraq pul qazanması və pul sarıdan korluq çəkməməsi çox kişiləri qane etmir. Qadın karyerası arxasında kölgədə qalmaq isə kişi üçün əsl faciədir. Müasir dövrdə boşanmaların çoxu qadınların karyera sahəsində uğurlarına tab gətirməyən kişilərə görə olur”.

*Ayşən Vəli*

# Fatih Terimə fantastik iş təklifi: illik 20 milyon avro maaş!



Türkiyə futbolunun əfsanələrindən olan Fatih Terim Səudiyyə Ərəbistanıda çalışmağa yaxındır. SİA xəbər verir ki, ”Əl Əhli” 70 yaşlı mütəxəssisi baş məşqçi postuna gətirmək istəyir. Bu barədə ”Milliyet” nəşri məlumat yayıb. Ərəblər təcrübəli məşqçiyə illik 20 milyon avro maaş olmaqla 3 illik müqavilə təklif edib.

Qeyd edək ki, ”Əl Əhli” yay transfer pəncərəsi zamanı heyətinə Eduard Mendi, Riyad Mahrez, Allan Sent-Maksimin, Frank Kesse, Rojer İbanes, Merih Demiral, Qabri Veqa kimi tanınmış futbolçuları cəlb edib.

# ”Zəhərlənmələr müalicədən sonra da orqanizmdə fəsadlarını saxlayır”

*MÜTƏXƏSSİS AÇIQLADI*



“Müasir, yeni qidaların hər biri sağlam və insan orqanizminə fayda verən qidalar hesab olunmur. Xüsusilə də bu uşaq və yeniyetmələrdə özünü daha çox göstərir. Çünki uşaq və yeniyetmələr hər an inkişaf prosesində olduğundan həm gigiyenik qaydalara uyğun şəkildə hazırlanmış qida məsullarından istifadə etməli, həm də bu qidaları hazırlayan insanların da sağlamlıq dərəcəsi yüksək olmalıdır. Əks halda keyfiyyətsiz məsullarla hazırlanan qidalar qəbul edən uşaq və yeniyetmələrin inkişafı həm fiziki, həm də əqli cəhətdən problemlərlə üzləşir. Bir çox hallarda həll olmayan gigiyenik problemlər özünü zəhərlənmələr şəklində göstərir”. Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova deyib.

Mütəxəssis bildirib ki, zəhərlənmələr isə müalicədən sonra da orqanizmdə fəsadlarını qoruyub saxlayır: ”Bəzən hər hansı zərərli və ya gigiyenik cəhətdən düzgün hazırlanmayan qida immun sistemi zəif və ya ac olan insanlarda özünü baş gicəllənmə, ürəkbulanma, qusma və ishal kimi göstərsə də, bu bir çox insanların orqanizmində gizli virus və bakteriyalar şəklində yaşayıb, gələcəkdə daxili orqanların funksiyasının pozulmasına səbəb olur. Bu həm də gələcəkdə həmin uşaq və yeniyetmələrin gələcəkdə validеyn olaraq xəstə uşaq dünyaya gətirməsinə səbəb olur. Buna görə də mütləq şəkildə qida, qidanın hazırlanması və təqdim olunmasına qədərki bütün prosesdə qaydalara əməl olunmalıdır. Uşaq və yeniyetmələrin qidalanmasında evdə, mənşəyi bəlli məsullarla hazırlanmış qidalardan istifadə olunmalıdır. Əks təqdirdə orqanizmdə uzunmüddətli, ciddi problemlərə yol açır”.

*Səbinə Hüseynli*


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000